Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

30
APREL
2019-cu il

№ 76 (3974)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# ERMƏNİSTANIN ÇİNLƏ BAĞLI ALDADICI TAKTİKASI, YENİ «FORPOST» İDEYASI VƏ AZƏRBAYCAN ƏLEYHİNƏ OLA BİLƏCƏK ELEMENTLƏR...

səh. 6

ABŞ nəticəsi olan görüş istəyir, İrəvana təzyiqlər yenidən başlayır - XİN başçılarının Vaşinqton görüşü... səh. 9

Azərbaycan-Türkiyə hərbi təlimləri Ermənistanın yeni təbliğat platformasında - anti-Rusiya elementləri yenə göründü səh. 4

Gələn ilin yanvarınadək Azərbaycandan 5 min Çin vaqonu keçəcək... səh. 7

Azərbaycansız "Bir kəmər, bir yol" layihəsi hara qədər inkişaf edə bilərdi... səh. 3

Kredit faizləri barədə maddə banklar haqda yeni qanundan niyə çıxarıldı... səh. 7

Dollar-manat kursunun kiçik tərəddüdlərlə enib-qalxmasının iqtisadi və qeyri-iqtisadi əsasları... səh. 12

Zaqatala sakininin Abşeronun Məhəmmədi kəndində müşkülə dönmüş torpaq problemi - sənəd var, torpağın yeri bilinmir... səh. 15

Bakı mağazalarında əcaib kukla - baş qız, bədən oğlan... səh. 15




## BMT və Avroittifaqın nüvə qaçaqmalçılığına qarşı mübarizə layihəsi - «Metsamor» nüvəsinin terrorçuların əlinə düşməsi real təhlükə kimi...

səh. 8



Gürcüstan-Azərbaycan münasibətlərini pozmaq istəyən məlum şəxslərin arxasında gizli erməni barmaqları... səh. 5

Arıqladıcı «Meri» çayının fəsadları - ölümdən qayıtdığını iddia edən xəstənin dedikləri... səh. 13



İlk üç ayda 2,1, ilin sonunadək 4 faiz inflyasiya - Elman Rüstəmovun proqnozunda şübhəli mətləb... səh. 12

Ceyhun Bayramovun birillik nazir fəaliyyətinə ekspert və ictimai baxışlar... səh. 10



"Azərbaycanın iqtisadi potensialları və infrastruktur imkanları olmadan "Bir kəmər, bir yol" layihəsinin böyük uğurlarından danışmaq çətindir" səh. 3



Almaniya sağ radikallarının müharibə planları və erməni mafiyasının azərbaycanlılara qarşı mümkün fəaliyyətləri... səh. 6



"Zərifə Budaqovanın 90 illik yubileyinin keçirilməsi üçün Milli Elmlər Akademiyasının Rəyasət Heyəti tərəfindən xüsusi qərar qəbul edilib" səh. 14



"Kontakt Home"da aparat qalmaqalı... səh. 11



## Azərbaycan və Aİ yaxın vaxtlarda yeni saziş üzrə danışıqları başa çatdıra bilər

**Azərbaycan və Avropa İttifaqı (Aİ) may ayında strateji tərəfdaşlıq barədə yeni saziş üzrə danışıqları başa çatdıra bilər.**

"Trend"in məlumatına görə, bunu Aİ-nin Azərbaycandakı səfiri Kestutis Yankauskas deyib.

Səfir bildirib ki, ötən həftə ticarət məsələləri üzrə danışıqlar aparılıb.

K.Yankauskas əlavə edib ki, gələn ay Brüsseldə "Şərq tərəfdaşlığı" proqramının 10 illiyinə həsr olunmuş görüş keçiriləcək.

## Azərbaycan Türkiyədə hərbi təlimlərdə iştirak edəcək

**Azərbaycan Hərbi Hava Qüvvələri (HHQ) Türkiyədə keçiriləcək hərbi təlimlərdə iştirak edəcək. "Trend"in məlumatına görə, təlimlər "Anadolu Ankası - 2019" adı altında keçiriləcək.**

Azərbaycanla yanaşı, Qətər, Gürcüstan, İtaliya, Pakistan və Rumıniya HHQ-lərinin də qatılacağı hərbi təlimlər bu il mayın 13-24-də Konyada baş tutacaq.

Hərbi təlimlərdə adıçəkilən ölkələrdən ümumilikdə 100 hərbçi iştirak edəcək.

## Yunus Oğuzun "Səfəvi Şeyxi" tarixi romanı da çap olundu




**Yazıçı-publisist, dramaturq, tarixçi-alim Yunus Oğuzun "Səfəvi Şeyxi" adlı yeni tarixi romanı işıq üzü görüb.**

Olaylar.az xəbər verir ki, kitaba ön sözü filologiya elmləri doktoru, akademik, AMEA-nın müxbir üzvü, millət vəkili Nizami Cəfərov yazıb. Bu, müəllifin 9-cu tarixi romanıdır.

Qeyd edək ki, roman əsasən ilk dəfə olaraq sünni təriqətindən şiə təriqətinə keçən Şeyx Cüneyddən bəhs edir. Romanda Şeyx Səfidən başlayaraq Şeyx Cüneydə qədər olan şeyxlərin hər birindən məlumat verilir.

## Mətbuat Şurası mərhum jurnalist Akif Qəhrəmanlının anım mərasimini keçirdi...

**Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin təşkilatçılığı ilə tanınmış tərcüməçi-jurnalist, bir il əvvəl dünyasını dəyişmiş Akif Qəhrəmanlının anım mərasimi keçirilib.**




Toplantıda mərhum qələm sahibinin həmkarlarının və dostlarının xatirələrindən ibarət "Mən sabah da varam" toplusu ictimaiyyətə təqdim edilib.

Mərasimi giriş sözü ilə açan MŞ-nin Ahıl Jurnalistlər Məclisinin sədri Məzahir Süleymanzadə bildirib ki, əmək fəaliyyətinə adi fəhləlikdən başlamış A.Qəhrəmanlı ali filoloji təhsildən sonra uzun illər ölkənin ən nüfuzlu media qurumları olan AZƏRTAC-ın, "Xalq qəzeti"nin, Azərnəşr"in, müstəqillik illərində isə Azərbaycan Prezidenti Administrsiyasının tərcümə şöbələrində müxtəlif vəzifələrdə çalışıb, saysız-hesabsız cari materialı, bir sıra gərəkli mənbəni və populyar kitabları rus dilindən ana dilimizə çevirib.

Azərbaycan Prezidenti Administrasiyasının məsul işçisi İsrafil Qurbanov A.Qəhrəmanlının ötən onilliklərdə milli tərcümə sənətinin aparıcı istiqaməti olmuş rus-azərbaycan dilləri üzrə tərcümə işinin mahir və tanınmış nümayəndələrindən biri olduğunu, onun mətbuatda, nəşriyyatda və ali idarətmə orqanlarında səmərəli tərcüməçilik fəaliyyətini vurğulayıb, onunla bağlı xatirəsini bölüşüb. A.Qəhrəmanlı barədə yeni çapdan çıxmış "Mən sabah da varam" xatirələr toplusunun tərtibçisi, tədqiqatçı-jurnalist Şəfəq Nasir, tanınmış tərcüməçi-jurnalist Rafiq Savalan, mərhum jurnalistlə birlikdə işləmiş, dostluq etmiş yazarlardan Rafiq Hacıyev, Tahir Aydınoğlu, Əlirza Xələfli, Esmira Şükürova, Teymurşah Xaspoladov, Əntiqə Qonaq, Şəmsiyyə Kərimova və başqaları mərhum həmkarlarının yüksək insani və peşəkarlıq xüsusiyyətlərindən söz açıb, onun xatirəsinin əziz, xidmətlərinin unudulmaz olduğunu söyləyiblər. Tanınmış iqtisadçı və sabiq millət vəkili Eldar Qəhrəmanov qardaşının xatirəsinə göstərilən yüksək ehtirama və qədirbilənliyə görə ailə üzvləri adından Azərbaycan Mətbuat Şurasına və mərasim iştirakçılarına minnətdarlığını bildirib.

# Prezident İlham Əliyev Xorvatiya Baş nazirinin müavini ilə görüşüb

**Prezident İlham Əliyev aprelin 29-da Xorvatiya Respublikası Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri xanım Mariya Buriçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



Dövlət başçısı Xorvatiyaya səfərini məmnunluqla xatırlayaraq, orada aparılan danışıqların və müzakirələrin səmərəli olduğunu qeyd edib və bu səfərin ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə verdiyini bildirib. Prezident İlham Əliyev ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq, əlaqələrimizin gələcəkdə də genişlənəcəyinə əminliyini ifadə edib. Dövlət başçısı Mariya Buriçin ölkəmizə səfərinin ikitərəfli münasibətlərin möhkəmlənməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Xanım Mariya Buriç, ilk növbədə, Xorvatiyanın Baş naziri Andrey Plenkoviçin salamlarını dövlət başçısına çatdırıb. Prezident İlham Əliyevin Xorvatiyaya səfərinin çox uğurlu keçdiyini və səfər zamanı əlaqələrimizin daha da möhkəmlənməsi baxımından məhsuldar müzakirələrin aparıldığını qeyd edən Mariya Buriç səfəri çərçivəsində Xorvatiyanın Azərbaycandakı səfirliyinin rəsmi açılışında iştirak edəcəyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviçin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Xorvatiyanın Baş nazirinə çatdırmağı xahiş edib.

# Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının növbəti iclası keçirildi...

**Azərbaycan Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının növbəti iclası keçirilib. Toplantını açan komissiya sədri Müşfiq Ələsgərli gündəlikdə duran məsələlər barədə məlumat verib. Gündəlik səsə qoyularaq qəbul edilib.**




İclasda müzakirəyə çıxarılan ilk məsələ "Fireland Vineyards" MMC-nin "Dia.az" saytına qarşı şikayəti olub. Bu xüsusda son zamanlar "Dia.az" saytından şikayətlərin intensivləşdiyi, saytın çoxluğu və şikayətçilərin ciddi arqumentlərlə çıxış etdikləri önə çəkilib. Buna görə də razılığa gəlinib ki, saytla əlaqədar xüsusi müzakirə keçirilsin və daha geniş araşdırmalar aparılsın.

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqovun ABA TV-yə qarşı şikayətinin müzakirəsində sayt rəhbərliyi iradları qəbul edib. Şikayət doğuran materiallar dövriyyədən çıxarıldığı üçün məsələ qapanmış sayılıb. ABA TV-yə xəbərdarlıq edilərək bu sayaq məsələlərin təkrarlanmaması tövsiyə olunub.

Komissiya "Sipark İnşaat " MMC-nin "7 news.az" saytına qarşı şikayətini də araşdırıb. "7 news.az" saytının rəhbəri Səbuhi Abbasov iclasda iştirak edib. Şikayətçi tərəf isə toplantıya qatılıb mövqeyini əsaslandırmadığı üçün iddia əsassız sayılıb və geri qaytarılıb.

Sumqayıt şəhər tam orta məktəbin direktor əvəzi Həqiqət Abdullayevanın "Azbaku.org", "Bakunews.az", "Doqruxeber.az" və "Conflikt.az" saytlarına qarşı şikayətinin müzakirəsi zamanı müəyyənləşdirilib ki, fəaliyyətləri narazılıq doğurmuş saytlar tutarlı arqumentlər gətirmədən məktəb direktoru barəsində ittihamedici fikirlər səsləndiriblər, həmçinin peşə prinsiplərinə zidd olaraq onun şəxsi həyatı ilə bağlı əsassız məsələləri gündəmə gətiriblər. Qeyd edilən saytların nümayəndələri iclasda iştirak edib mövqelərini bildirmədikləri üçün məsələyə "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyasında baxılması barədə razılığa gəlinib.

Kənd Təsərrüfati Nazirliyinin "Azəraqrar" Dövlət İstehsalat və Emal Birliyi MMC-nin direktoru Anar Hüseynovun "Realmedia", "Teref.info", "Bakunews.az" xəbər saytlarına qarşı şikayətini araşdıran komissiya üzvləri müəyyənləşdiriblər ki, sözügedən saytlarda yayımlanmış materiallarda A.Hüseynovun fəaliyyətinə düşünülmüş şəkildə xələl gətirmək, nüfuzunu zədələmək üçün qondarma fikirlər yer alıb.

Tənqid obyekti heç bir əsaslandırma olmadan müxalif düşərgədə dayanan ayrı-ayrı şəxslərlə və terrorçu FETÖ hərəkatı ilə əlaqələndirilib. Komissiya sözügelən materialları geniş miqyasda araşdırmaq üçün məsələni "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyasına yönləndirib.

**Aydın Quliyev Zeynal Vəfanın həyat yoldaşı Emma xanımın vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!**

**Pekində 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda Azərbaycanın fəal və yüksək səviyyədə təmsil olunması ümumdünya iqtisadi inteqrasiya proseslərində ölkəmizin səmərəli iştirakını təsdiqləyən tarixi əhəmiyyətli hadisədir.**

# Aydın Quliyev: "Azərbaycanın iqtisadi potensialları və infrastruktur imkanları olmadan "Bir kəmər, bir yol" layihəsinin böyük uğurlarından danışmaq çətindir"



Bunu "Trend"-ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib. O bildirib ki, qədim İpək Yolu boyunca geniş Avrasiya iqtisadi əməkdaşlıq arenasının yaradılması Azərbaycanın neçə illərdir reallaşmasına çalışdığı böyük layihələrdən biridir: "Hələ 2015-ci ildə Prezident İlham Əliyev Pekində "Bir kəmər, bir yol" layihəsində iştirakla bağlı saziş imzalayana qədər Azərbaycan qədim İpək Yolunun yenidən və daha geniş miqyasda işə salınması üçün çox işlər görmüşdü. Prezident İlham Əliyevin səyləri ilə yaradılmış müxtəlif nəqliyyat dəhlizləri, logistika infrastrukturları, neft-qaz kəmərləri qədim İpək Yolunun, eləcə də Çin daxil olmaqla 150-dən çox ölkənin həyata keçirmək istədiyi "Bir kəmər, bir yol" iqtisadi layihəsinin çox mühüm elementləri və tərkib hissələridir. Pekində ikinci beynəlxalq forumda Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı və yüksək səviyyədə çıxışı növbəti dəfə sübut etdi ki, böyük Avrasiya iqtisadi inteqrasiya layihələrinin həyata keçirilməsi üçün ölkəmizin apardığı siyasət həqiqətən də uzaqgörən platformadır".

Ekspert vurğulayıb ki, Azərbaycanın bugünkü iqtisadi, ticarət potensialları və geniş inteqrasiya, infrastruktur imkanları olmadan "Bir kəmər, bir yol" layihəsinin böyük uğurlarından danışmaq çətindir: "Prezident İlham Əliyevin forumdakı çıxışı Azərbaycanın imkan və potensiallarının Avrasiya iqtisadi inteqrasiya layihələrinin həyata keçirilməsində nə qədər təsirli gücə malik olduğunu göstərmək baxımından çox əhəmiyyətlidir. Dövlət başçısı ölkəmizin iqtisadi inkişaf uğurlarının tam mənzərəsini təsvir etməklə iqtisadi kəmərin üstündə Azərbaycanın bəzi başqa ölkələr kimi yük yox, hərəkətverici qüvvə olduğuna diqqətləri bir daha cəlb etdi. Azərbaycanın şaxələndirilmiş iqtisadiyyata, dinamik artan böyük valyuta ehtiyatlarına, insan kapitalına böyük investisiya qoymaq imkanına və daimi islahatlar aparmaq gücünə malik olması sözügedən geniş əməkdaşlıq layihəsinin gücünə güc qatan mühüm faktorlardır. Prezident çıxışında bu məsələlərin hər biri haqqında geniş və rəy yaradıcı məlumatlar verdi. Bütün bunların Azərbaycan üçün təkcə daxili inkişaf göstəriciləri olduğunu düşünmək yanlışlıq olardı. Məsələnin mahiyyəti daha dərindir və Azərbaycanın daxili inkişaf göstəriciləri Avrasiya iqtisadi inteqrasiya planlarının həyata keçirilməsində böyük təsir gücünə malikdir".

A.Quliyev əlavə edib ki, Prezident İlham Əliyevin Avropa ilə Asiya arasında körpülərin, habelə tranzit-logistika infrastrukturlarının qurulmasına investisiyaların yatırılması barədə dedikləri də forumda maraqla qarşılandı və bu, Avrasiya iqtisadi məkanının inkişafında Azərbaycanın mühüm təsirə malik olduğunu göstərən faktlardandır: "Postneft inkişaf modelinin yaradılmasında Azərbaycanın təcrübəsinin bu yolu tətbiq etməkdə olan bir sıra Asiya ölkələri üçün əhəmiyyətli olmasına şübhə yoxdur. Prezident Pekin forumunda Azərbaycanın iqtisadi inkişafını, Böyük İpək Yolunun bərpası istiqamətində indiyə qədər gördüyü işləri, eyni zamanda, Avrasiya iqtisadi inteqrasiyasına töhfələrini tam şəkildə təqdim edə bildi. Təkcə bu faktı deyək ki, bir sıra çox güclü Çin şirkətlərinin Azərbaycanla yeni sazişlər imzalaması Prezident İlham Əliyevin təqdimatına uyğun reaksiyaların ifadəsi sayıla bilər. Fikrimcə, Pekin forumundan sonra Çin şirkətləri ilə bərabər, digər Cənub-Şərqi Asiya ölkələrinin şirkətlərinin də Azərbaycanla əməkdaşlığa marağı xeyli artacaq".

Baş redaktor qeyd edib ki, Azərbaycan Prezidentinin Pekin forumunda çıxışının unikal təsir effektlərindən xəbər verən başqa bir nüans da var: "Prezident İlham Əliyevin forumda "Bir kəmər, bir yol"un təkcə nəqliyyat imkanlarını birləşdirən layihə olmadığı barədə fikirləri bu yolun daha geniş geosiyasi, geostrateji təsirlər doğura biləcəyinə diqqət çəkir. Azərbaycan Prezidentinin "Bir kəmər, bir yol" layihəsinin yeni beynəlxalq ikitərəfli və çoxtərəfli münasibətlər doğuracağına işarə etməsi hələ uzun müddət təhlil ediləcək, nəticələr çıxarılacaq və tədqiq olunacaq. Pekin forumu Azərbaycanın Avrasiya iqtisadi əməkdaşlıq və bunun təsiri altında siyasi təhlükəsizlik modelləri üçün nə qədər əhəmiyyətli ölkə olduğunu ilk dəfə geniş şəkildə nümayiş etdirdi. Bir daha təsdiqlənir ki, Azərbaycan iqtisadiyyatı təhlükəsiz və sabit inkişaf edən vahid Avrasiya məkanının yaradılmasında həlledici rol oynayır və oynayacaq".

---

**Məlum olduğu kimi, Prezident İlham Əliyev Çində keçirilən 2-ci "Bir kəmər, bir yol" beynəlxalq forumunda iştirak edib. Forumda çıxış edən dövlət başçısı ölkədə həyata keçirilən islahatlardan danışıb, nəqliyyat, infrastruktur, tranzit sahəsində həyata keçirilən layihələrin önəmindən bəhs edib.**

*”Çin istəyir ki, ixrac etdiyi məhsulların bir hissəsini Azərbaycan üzərindən dünya bazarına çıxarsın”*

# Azərbaycansız "Bir kəmər, bir yol" layihəsi hara qədər inkişaf edə bilərdi...

## Fikrət Yusifov: ”Azərbaycan bu layihənin reallaşmasında açar rolunu oynayır”

Prezident qeyd edib ki, Azərbaycanın sürətli iqtisadi inkişafı bizə ölkəni transformasiya etməyə kömək edib. Ötən on beş il ərzində ölkə iqtisadiyyatı üç dəfədən çox artıb. Ötən illər ərzində yatırılan 260 milyard dollar həcmində sərmayə ölkəni müasirləşdirməyə, müasir infrastruktur yaratmağa kömək edib. O cümlədən, nəqliyyat sahəsində infrastrukturu yaratmağa imkan verib. Prezident vurğulayıb ki, aparılan islahatlarda əsas hədəf iqtisadiyyatı şaxələndirmək, insan kapitalına investisiya yatırmaq və inkişaf üçün dayanıqlı imkanlar yaratmaqdır. Ölkə başçısı bu sahədə görülən işlər və əldə olunan müsbət nəticələrə toxunub. Eyni zamanda, məlum olub ki, Azərbaycan müasir infrastrukturun yaradılmasına sərmayə yatırmaq üçün öz maliyyə resurslarından istifadə edir. Müasir nəqliyyat infrastrukturunun yaradılması Azərbaycanın prioritetləri sırasındadır.

Görünən odur ki, "Bir kəmər - bir yol" layihəsi yeni strateji reallıqların tərənnümü kimi qəbul olunur. Çoxsaylı ölkə içərisində öz geosiyasi və geostrateji mövqeyi ilə seçilən tarixi İpək yolunun "Şimal-Cənub" nəqliyyat marşrutu ilə kəsişdiyi mühüm geostrateji məkanda Azərbaycan da var. Bakı özünün müvafiq nəqliyyat-infrastruktur, logistik imkanları, mühüm tranzit üstünlükləri ilə fərqlənir. Belə üstünlüklər həm də Böyük İpək yolunun baş arteriyası - TRASECA-nın mənzil qərargahının yerləşdiyi, Xəzərin ən böyük liman şəhəri paytaxt Bakının bütün multimodal nəqliyyat sistemini özündə birləşdirir. Avropa ilə Asiyanı birləşdirəcək yeni alternativ bağlantı - Bakı-Tiflis-Qars dəmir yolu xəttinin işə düşməsi, yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin yaradılması, "Şimal-Cənub" nəqliyyat dəhlizinin yenidən qurulması fonunda bu effektlər daha real görkəm alacaq.

Yekun olaraq, iqtisadi sahədə həyata keçirilən islahatlar, infrastruktur və tranzit şəbəkəsinin inkişafı ilə bağlı görülən böyük işlər "Bir kəmər, bir yol" layihəsinin həyata keçirilməsində necə rol oynayacaq? Azərbaycansız sözügedən layihənin uğurundan danışmaq olarmı?




**Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, Azərbaycanda nəqliyyat infrastrukturunun müasirləşdirilməsi ölkənin tranzit və logistik imkanlarını artırır:** "Azərbaycan mühüm nəqliyyat qovşağı üzərində yerləşir. Azərbaycanda müasir nəqliyyat infrastrukturunun yaradılması üçün sistemli işlər görülür. Bakıda müasir dəniz limanı tikilib. Azərbaycanda bu sahədə görülən və görülməkdə olan işlər "Bir kəmər, bir yol" layihəsinin reallaşmasında mühüm rol oynayacaq. Bu baxımdan, Prezident İlham Əliyevin sözügedən tədbirdə çıxışı və toxunduğu məsələlər mühüm əhəmiyyət kəsb edir. Bu layihədən bəhrələnəcək ölkələrdən biri də Azərbaycandır. Təbii ki, Azərbaycan da bu prosesdə iştirakçı ölkə olaraq sözügedən layihənin reallaşmasına öz töhfəsini verəcək. Bu layihə çərçivəsində Azərbaycan üzərindən daşımaların həyata keçirilməsi xüsusi rola malikdir. Çünki ərazi baxımdan Azərbaycan çox mühüm mövqedə yerləşir. Ona görə ki, Azərbaycan Qərblə Şərqi birləşdirəcək çox ciddi məkandır. Ümumilikdə, Çinin Azərbaycana marağı xüsusidir. Bu səbəbdən "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Azərbaycanla əməkdaşlıqda çox maraqlıdır. Çünki bu layihə Çin üçün xüsusi əhəmiyyət kəsb edir. Məsələ ondadır ki, Çin 4,6 trilyon dollar xarici ticarət dövriyyəsi olan bir ölkədir. Çin istəyir ki, ixrac etdiyi məhsulların bir hissəsini Azərbaycan üzərindən dünya bazarına çıxarsın. Bu reallaşarsa, Azərbaycan tranzit ölkə olaraq böyük qazanc əldə edəcək. "Bir kəmər, bir yol" layihəsinin Azərbaycan üzərindən həyata keçirilməsinin bir sıra üstünlükləri var. Bunun başlıca üstünlüyü ondan ibarətdir ki, yüklərin Qərb ölkələrinə çatdırılması müddəti hardasa 3 dəfə qısalacaq. Bu baxımdan, Çin daha çox maraqlıdır ki, Azərbaycan bu layihədə fəal iştirak etsin. Azərbaycansız bu layihənin reallaşmasını təsəvvür etmək çətindir. Ona görə ki, Azərbaycan bu layihənin reallaşmasında açar rolunu oynayır".

***Vidadi ORDAHALLI***

**Bir neçə gündən sonra Azərbaycan-Türkiyə ordu birləşmələrinin Azərbaycanda növbəti birgə hərbi təlimləri baş tutacaq. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, 1-3 may tarixləri arasında Azərbaycan-Türkiyə ordu birləşmələrinin "Mustafa Kamal Atatürk-2019" şüarı altında növbəti birgə taktiki təlimləri keçiriləcək.**



*"Yevseyev, ənənəvi olaraq, ermənilərin maraqlarına xidmət edən bir siyasətçidir"*

# Azərbaycan-Türkiyə hərbi təlimləri Ermənistanın yeni təbliğat platformasında - anti-Rusiya elementləri yenə göründü

***Arzuxan Əlizadə:** "Birgə təlimləri başqa istiqamətdə yozurlar ki, Azərbaycanı Dağlıq Qarabağı güc yolu ilə azad etməkdən çəkindirsinlər"*

Aprelin 22-də təlimlərdə iştirak edəcək türk əsgərlərinin Bakıda rəsmi qarşılanma mərasimi keçirilib.

O da məlumdur ki, Azərbaycanla Türkiyə arasında istənilən hərbi-siyasi proses erməni mətbuatı və ekspertlər dairəsi tərəfindən diqqət mərkəzində saxlanır. Hazırda ermənilər hesab edirlər ki, bu təlimlərdə, ən azı, nəzəri olsa da, əsas rəqib Ermənistan nəzərdən keçiriləcək.

Təlimin əsas məqsədi qərargahların müştərək planlarının hazırlanması, şəxsi heyətin döyüş hazırlığı səviyyəsinin artırılması və onların birgə əməliyyatları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq, həmçinin, təcrübə mübadiləsi həyata keçirməklə iki ölkənin hərbi qulluqçularının qarşılıqlı münasibətlərini və qarşılıqlı anlaşmasını yüksək səviyyədə saxlamaqdır.

Birgə təlimə iki ölkə ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, həmçinin, hava hücumundan müdafiə və zenit-raket bölmələri cəlb ediləcəyi bildirilir

Bu arada, Rusiyada bəzi erməni yönümlü ekspertlər son zamanlar rus-türk münasibətlərinin nizamlanması və dərinləşməsinə baxmayaraq, Türkiyənin Cənubi Qafqazdakı bu fəallığını Ermənistan üçün təhdid, Rusiya Federasiyası üçün də müəyyən çağırışlar hesab edirlər.

Məsələn, Moskvanın MDB ölkələri üzrə institutunun direktor müavini, Qafqaz şöbəsinin rəhbəri Vladimir Yevseyev mətbuata açıqlamasında bundan narahatlığını gizlətməyib. Onun fikrincə, guya bu kontekstdə 2016-cı il noyabrın 30-da Rusiya və Ermənistan arasında imzalanmış erməni-rus birləşmiş hərbi qruplaşmasının yaradılması amili nəzərə alınmalıdır: "Erməni-rus münasibətləri aydın şəkildə Türkiyəyə başa salır ki, qoşunların birləşmiş hərbi qruplaşmasının yaradılması səbəbilə Ermənistanla hərbi münaqişəyə girə bilməz".

Əvvəla Azərbaycanın hansısa dövlətə, o cümlədən, Ermənistana qarşı ərazi iddiası yoxdur. Azərbaycanın məqsədi işğal olunmuş ərazilərini azad etməkdir. Bu sülh yolu ilə mümkün olmasa, bir gün güc yolu ilə həyata keçiriləcək. Bu baxımdan davamlı olaraq təlimlər keçirir, ordunun döyüş hazırlığını artırır. Bununla bağlı bir sıra vasitələrdən istifadə edilir. Onlardan biri də Azərbaycana dost olan ölkələrlə birgə hərbi təlimlərin keçirilməsidir. Buna da heç bir tərəf mane ola bilməz. O zaman niyə bəzi erməni yönümlü ekspertlər bu təlimləri başqa müstəvidə yozurlar?

**Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, bəzi dairələrin bundan narahat olması gözləniləndir:** "Çünki onlar da başa düşürlər ki, Azərbaycan sonsuza qədər işğalla barışmayacaq. Əvvəl-axır öz torpaqlarını azad edəcək. O üzdən, birgə təlimləri başqa istiqamətdə yozurlar ki, Azərbaycanı Dağlıq Qarabağı güc yolu ilə azad etməkdən çəkindirsinlər. Guya ki, bu, Ermənistana qarşı təhdiddir və s. Ona görə də Yevseyev belə narahatdır. Yevseyevin belə açıqlamalar verməsi isə, bir növ, təəccüblü deyil. Çünki o, ənənəvi olaraq, ermənilərin maraqlarına xidmət edən bir siyasətçidir. Ondan hansısa obyektiv yanaşma gözləmək sadəlövhlük olar. Məgər Dağlıq Qarabağ Ermənistan ərazisidir ki, Yevseyev bu qədər narahatdır?

**Yevseyev də, Kazimirov kimi, hər zaman ermənipərəst mövqedən çıxış edir. Görünən odur ki, Rusiyanın ermənipərəst dairələri Azərbaycan Ordusunun öz döyüş qabiliyyətini artırmasından, bu istiqamətdə görülən tədbirlərdən get-gedə daha çox narahat olmağa başlayıblar".**

***Vidadi ORDAHALLI***

**Uruqvayın Xarici Əlaqələr naziri vəzifəsini icra edən səfir Ariel Berqamino ilə Azərbaycan Respublikasının Şərqi Uruqvay Respublikasında akkreditə olunmuş səfiri Rəşad Aslanov arasında görüş keçirilib.**

# Uruqvay Azərbaycanın bütövlüyünü tanıdı, ancaq vitse-prezidentin separatçı qurumun rəhbərliyi ilə görüşünə aydınlıq gətirmədi

***Mübariz Əhmədoğlu:** "Separatçı rejimin nümayəndəsinin Uruqvaya səfəri rəsmi xarakter daşımayıb"*

Xarici İşlər Nazirliyinin yaydığı məlumata görə, Azərbaycan səfirinin müraciəti əsasında keçirilən bu görüşün başlıca məqsədi ikitərəfli gündəlikdə duran bir sıra məsələlərin müzakirəsi, o cümlədən, Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin "nümayəndəsinin" Uruqvaya gəlməsi və burada guya ki, ölkə rəsmiləri də daxil olmaqla görüşlərin keçirilməsi ilə bağlı mətbuatda yayılan məlumatlara aydınlıq gətirilməsi olub.



Azərbaycanın işğal edilmiş ərazilərində yaradılan saxta qurumun qondarma "xarici işlər nazirinin" Uruqvaya səfəri məsələsi də söz-ügedən görüşdə müzakirə edilib. Uruqvayın Xarici İşlər Nazirliyinin rəsmisi bəyan edib ki, Uruqvay Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Qurum rəsmisi onu da bildirib ki, Uruqvay beynəlxalq hüququn aliliyinə və dövlətlərin ərazi bütövlüyünə hörmətlə yanaşır və Uruqvay Dağlıq Qarabağın müstəqilliyini tanımır. O, həmçinin, münaqişənin sülh yolu ilə həll edilməli olduğu və Uruqvayın ATƏT-in Minsk Qrupunun səylərini və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini dəstəklədiyi vurğulayıb.

Qeyd edək ki, bu günlərdə qondarma Dağlıq Qarabağ rejiminin nümayəndəsi Uruqvayda olub və orada bəzi görüşlər keçirib. Hətta erməni saytlarında bu ölkənin vitse-perzidenti ilə həmin şəxsin şəkilləri də yayılıb. Bu olaydan sonra

Uruqvay hököməti bəyan edir ki, biz Azərbaycanın ərazibütövlüyünü tanıyırıq. Uruqvay Azərbaycanın ərazibütövlüyünü tanıyırsa, bəs onda nə üçün bu ölkənin vitse-prezidenti ilə separatçı rejimin rəhbərlərindən kiminsə görüşünə aydınlıq gətirilmir? Bu, Uruqvay hökümətindəki ikibaşlı oyununun əlaməti ola bilərmi?

Tanınmış politoloq Mübariz Əhmədoğlu baki-xeber.com-a bildirdi ki, Uruqvay hököməti separatçı rejimin müstəqilliyini tanımır və qondarma rejimin təmsilçisi Masis Mailyanın da sözügedən ölkəyə səfəri rəsmi xarakter daşımır. M.Əhmədoğlunun sözlərinə görə, M.Mailyan Uruqvayın vitse-prezidenti ilə deyil, bu ölkənin keçmiş prezidenti ilə görüşüb. "Separatçı rejimin nümayəndəsi Uruqvayın vitse-prezidenti ilə deyil, eks prezidenti Jose Mujica ilə görüşüb. O çox saf, təmiz adamdır və belə adamları da aldatmaq olduqca asandır. Uruqvay 1965-ci ildə ilk qondarma erməni soyqırımını tanıyan dövlətdir. Yəni o vaxt ermənilər Latın Amerikasına getdilər və həmin dövlətə sığındılar, bunun nəticəsində də qondarma soyqırımı tanıtdılar. İndi ermənilərin xəyalından keçir ki, Uruqvay qondarma erməni soyqırımını ilk tanıyıbsa Dağlıq Qarabağın müstəqilliyini (?) də bu ölkə tanısın. Uruqvayla ermənilər arasında uzun müddət əlaqə olub. Bu 5-10 il bundan əvvələ qədər belə idi. Lakin bizim dövlətimiz gücləndikdən sonra qitədən kənara çıxıb daha iri dövlətlərlə əməkdaşlıq əlaqələri yaratdı. Bizim xarici işlər nazirliyinin ilk rəsmi səfər etdiyi ölkələr də Latın Amerikası ölkələri, eləcə də Uruqvay oldu. Elə həmin dövrdə Uruqvay hököməti Azərbaycan hökümətinə vəd verdi ki, Dağlıq Qarabağ adlı qondarma rejimi tanımayacaq. O vaxtdan bu günə qədər də Uruqvay sözünün üstündə durub və ermənilərin saysız cəhdlərinə baxmayaraq, qondarma rejimin müstəqilliyini tanımır. Aprelin 24-ü ərəfəsində Uruqvay "erməni soyqırımı"nı rəsmən qeyd edir deyə Masis Mailyanı Uruqvaya göndərdilər. Ermənilərin məqsədi o səfərə Azərbaycanı qorxutmaq donu geydirmək idi ki, Uruqvay qondarma erməni soyqırımını birinci tanıyıbsa qondarma rejimin də müstəqilliyini birinci tanıyacaq. Mailyanın Uruqvaya səfərinin və ermənilərin bununla bağlı verdikləri bəyanatların heç bir siyasi gücü yoxdur".

*"Həmin dövrdə Uruqvay hököməti Azərbaycan hökümətinə vəd verdi ki, Dağlıq Qarabağ adlı qondarma rejimi tanımayacaq"*

Ay yarım bundan əvvəl Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun Latın Amerikasına, eləcə də Uruqvaya səfərini xatırladan M.Əhmədoğlu qeyd etdi ki, Latın Amerikasında erməni məsələsini tam nəzarət altına ala bilmişik. Onun sözlərinə görə, bu gün artıq ermənilər bizə cavab verməli olurlar. Azərbaycanın mövqeyinin Uruqvayda və digər Latın Amerikası ölkələrində ermənilərin mövqeyindən daha üstün olduğunu vurğulayan M.Əhmədoğlu qeyd etdi ki, bu gün Azərbaycan Uruqvay üçün qiymətli dövlətdir. "Bizim Uruqvayla həm siyasi, həm də iqtisadi əlaqələrimiz var. Eyni zamanda, Uruqvay da daxil olmaqla, bir neçə Latın Amerikası ölkəsinin Azərbaycanla yeni iqtisadi əməkdaşlıqlar qurmaq niyyətləri var. Yenə də deyirəm, Uruqvayda ermənilən planı baş tutmadı, verilən bəyanatlar blef idi. Separatçı rejimin nümayəndəsinin Uruqvaya səfəri rəsmi xarakter daşımayıb və Uruqvay hököməti birmənalı olaraq Azərbaycanın ərazi bütövlüyünü tanıyır"-deyə M.Əhmədoğlu bildirdi.

***İradə SARIYEVA***

**Gürcüstan Prezidenti Salome Zurabişvilinin bu yaxınlarda Azərbaycanla həmsərhəd zonaya səfərindən sonra, ümumilikdə, region üçün yaxşı nəticələr vəd etməyən proseslər başlanıb. Belə ki, Zurabişvili Gürcüstan-Azərbaycan sərhədinin demarkasiyası prosesinin sürətləndirilməsi məsələsini yenidən ictimailəşdirib. Rəsmi açıqlamalara istinad etsək, Gürcüstan və Azərbaycan arasında dövlət sərhədinin 34 faizi mübahisə predmeti olaraq qalır.**

# Gürcüstan-Azərbaycan münasibətlərini pozmaq istəyən məlum şəxslərin arxasında gizli erməni barmaqları...

Delimitasiya üzrə dövlət komissiyaları digər sahələr üzrə razılaşmalar əldə ediblər.

Hamımıza o da məlumdur ki, Gürcüstanın üzərində durduğu əsas məsələ Keşikçidağ (David Qareci) monastır kompleksi ilə bağlıdır. Maraqlıdır ki, Gürcüstanın hazırkı deputatları və sabiq rəsmiləri bu mövzu ilə bağlı əsl təxribat xarakterli fəaliyyətə start veriblər. İki gün əvvəl bölgəyə gələn gürcü deputat Şalva Natelaşvili üzünü sərhədçilərimizə tutaraq azərbaycanlıları təhqir etməkdən belə çəkinməyib. Belə ki, müxalif Liberal Partiyasının sədri Şalva Natelaşvili sərhədçilərimizə səslənərək bunları deyib: "Sizin əcdadlarınız Orta Asiyada yaşayanda bizim əcdadlarımız burada bu mədəniyyəti qurublar. Siz Orta Asiyadan gəlibsiniz. Sizin Qafqazla heç bir əlaqəniz yoxdur".

Sonra üzünü jurnalistlərə tutaraq "bu, Azərbaycanın Gürcüstana açıq-aşkar təcavüzü və işğalıdır. Rusiya bir tərəfdən, Azərbaycan da bir tərəfdən bizə təcavüz edir" kimi fikirlər səsləndirib.

Bunun ardınca, keçmiş prezident Mixeil Saakaşvilinin dönəmində Gürcüstanın müdafiə naziri postunda çalışmış İrakli Okuruaşvilinin açıqlaması da bu qəbildən olub və ancaq ölkələr arasındakı münasibətlərə xələl gətirmək məqsədini güdüb. O, "Gürcü arzusu"nun lideri Bidzina İvanişviliyə Azərbaycanla bağlı "məsləhətlər" verərək bildirib ki, nazır kimi çalışdığı dövrdə Azərbaycanla hansısa bir məsələdə problem yaranıbmış. O vaxt Azərbaycanın daxili işlər naziri ilə sərhəddə görüşdüyünü, ertəsi günü bu problemin gürcülərin xeyrinə qərar verilərək həll olunmayacağı təqdirdə 500 min azərbaycanlını "Qırmızı körpü"də qarşılamalı olacağını xatırladıb.

Bu adamlar belə açıqlamaların nəyə xidmət etdiyini və nələrə yol aça biləcəyini hesablaya bilmirlərmi? Və ya süni canfəşanlığın arxasından kənar siyasi qüvvələrin boylandığı hiss olunmurmu?

Milli Məclisin üzvü, Azərbaycan-Gürcüstan parlamentlərarası dostluq qrupunun rəhbəri Əflatun Amaşov bildirdi ki, Azərbaycanla Gürcüstan arasındakı münasibətlər kifayət qədər yüksək səviyyədədir: "İstər iqtisadi, istər siyasi, istərsə də mədəni əlaqələrə dair mütəmadi şəkildə görüşlər keçirilir, fikir mübadiləsi aparılır. Biz regionda strateji tərəfdaşıq. Lakin zaman-zaman bəzi qüvvələr ortaya hansısa problemlər çıxarmağa çalışırlar. Məsələn, Rusiya ilə Ermənistan arasında Abxaziyadan keçməklə dəmir yolunun çəkilməsi, yaxud Cənubi Osetiyadan avtomobil yolunun çəkilməsi kimi məsələlər, istər-istəməz, narahatlıq doğurur. Həmçinin, Gürcüstanda günahsız azərbaycanlıların qanını tökmüş erməni terrorçusuna abidə qoyulması kimi məsələlərlə Gürcüstan-Azərbaycan dostluğu sanki sınağa çəkilib. Bu sayaq sınaqlardan, imtahanlardan hər iki tərəf uğurla çıxıb. Birmənalı şəkildə demək olar ki, bizə düşmən olan Ermənistan və bəzi digər dövlətlər bu münasibətlərə hər zaman xələl gətirməyə, "parçalayıb hökm sürməyə" bir daha cəhd edirlər. Son zamanlar Keşikçidağ monastır kompleksi ilə bağlı gündəmə gələn məsələ də eyni qəbildəndir. Hazırda Gürcüstan və Azərbaycan arasında sərhədlərin delimitasiya olunması 66 faiz həyata keçirilib, 34 faiz isə həllini tapmamış qalıb. Keşikçidağ kompleksi də həmin ərazilərdə yerləşir. Bununla bağlı müvafiq qurumlar mütəmadi olaraq görüşür. Gürcüstan və Azərbaycan sərhədlərinin müəyyənləşdirilməsi üçün yaradılan komissiya bir neçə dəfə bu məsələləri müzakirə edib. Mən əminəm ki, həm Azərbaycan, həm Gürcüstan tərəfi bu məsələyə də aydınlıq gətirəcək və hər iki ölkə arasındakı dostluq və əməkdaşlıq pozulmayacaq".




Azərbaycan XİN-in də bu məsələyə münasibətini açıqlayıb. Bildirilib ki, Azərbaycan daim Gürcüstanla sərhədin tezliklə delimitasiyasının tərəfdarı olub. "Azərbaycanla Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası beynəlxalq təcrübədə tətbiq edilən qaydalara uyğun olaraq, qarşılıqlı əlaqələndirmə prosedurları əsasında, mövcud ikitərəfli formatlar çərçivəsində həll olunur. Azərbaycan həmişə Azərbaycan-Gürcüstan sərhədinin tezliklə delimitasiya olunmasının tərəfdarı olub. Azərbaycan bu prosesi ən qısa müddət ərzində başa çatdırmağa hazırdır".

Qeyd edək ki, gürcü siyasətçilərinin avantürist davranışlarına həmin ölkənin parlamentində təmsil olunan əslən azərbaycanlı millət vəkillərinin də sərt münasibəti olub. Gürcüstan parlamentində təmsil olunan deputat Savalan Mirzəyev öz "Facebook" səhifəsində yazdığı fikirlərdə təxribata cəhd edənləri sərt tənqid edib: "İrakli Okruaşvilini xatırlayırsınızmı? Keçmiş daxili işlər, müdafiə və iqtisadiyyat naziri (bir həftəlik). Okruaşvili birbaşa qeyd etdi ki, Gürcüstanda yaşayan azərbaycanlıları bir gündə vətəndən alıb sərhədə qoyacağam. Həqiqətən vətəndən, cünki azərbaycanlılar əsrlərdir Gürcüstanda yaşayır və Gürcüstan öz vətənidir. Azərbaycanlılar gürcü torpağında yad deyillər və ölkəni gürcülərdən az sevmirlər. Azərbaycanlılar Gürcüstanın inkişaf etməsinə gürcülərdən daha çox öz töhfəsini verməyə çalışırlar. Azərbaycan kəndlərində mövcud olan qədim qəbir daşları əsrlərdir mövcuddur, bizim əcdadlarımız Gürcüstanda doğulurdular, Gürcüstan üçün yaşayırdılar və Gürcüstan üçün ölürdülər. Okruaşvilinin bəyanatı isə separatizmin birbaşa ifadəsidir ... Şalva Natelaşvili olmayan qığılcımdan atəş çıxarmağa cəhd etdi və hakimiyyətdən BMT-nin Təhlükəsizlik Şurasını dəvət etməyi tələb etdi. Natelaşvili və hər kəs bilməlidir ki Azərbaycan heç bir zaman Gürcüstana qarşı aqressiya (təcavüz) həyata keçirməyəcək və heç bir zaman onun ərazisini işğal etməyəcək. Necə ki, Gürcüstan heç bir zaman Azərbaycana qarşı aqressiv olmayacaq və heç bir zaman ərazisini işğal etməyəcək. Niyə? Çünki bu iki qonşu dövlət arasında qardaşlıq əsrlər boyu var və bir çox əsr olacaq. Bəli, hər bir azərbaycanlı fəxr edir ki, Gürcüstan öz vətənidir, burada yaşayan hər bir azərbaycanlını Gürcüstanın kədərinə üzülür və Gürcüstanın uğuruna sevinir. Bunu heç kim silə bilməz və dəyişə bilməz. Biz Gürcüstanda yaşayan azərbaycanlılar bu qürurlu ölkənin qürurlu övladlarıyıq".

Politoloq Yeganə Hacıyeva qəzetimizə açıqlamasında bildirdi ki, bu əməlləri törədənlər birbaşa təxribatla məşğul olurlar. Müsahibimiz hesab edir ki, belə tendensiyanın meydana çıxmasında Gürcüstanın yeni seçilmiş Prezidentinin də "xidmətləri" az deyil: "Bu ilin fevral ayında Gürcüstan Prezidentinin Azərbaycana səfərindən sonra qonşu, dost ölkədə Azərbaycan-Gürcüstan sərhədlərinin delimitasiya və demarkasiyası mövzusu ətrafında yüksələn tendensiya ilə "maraqlı" bir təbliğat gedir. Gürcüstanda keçirilən son seçkilərlə konstitusiyaya edilən dəyişikliklərdən sonra ölkəsində sadəcə nominal prezident olan S.Zurabişvili qanunvericiliyə görə, ölkə sərhədlərinin delimitasiya və demarkasiyası istiqamətində istər təşəbbüsçü kimi, istərsə də icraçı kimi heç bir səlahiyyəti olmasa da, Azərbaycan-Gürcüstan sərhədlərinin delimitasiya və demarkasiyası mövzusunu sanki ölkəsinin xarici siyasətinin prioritet mövzusu qədər aktual saxlayır. Belə ki, ölkə qanunvericiliyinə görə, bu məsələ ətrafında qərarvermə və icra səlahiyyəti Gürcüstanın baş naziri və dövlət sərhədinin delimitasiyası üzrə komissiyaya aidiyyəti olan bir məsələdir.

Belə olan halda, Gürcüstanın yeni, keçmişdə xarici siyasət xidmətində görkəmli postlara yiyələnmiş nominal prezidentinin ölkəsinin strateji tərəfdaşı Azərbaycana ilk səfərində qonşu, dost ölkə ilə sərhədlərin delimitasiya və demarkasiyası mövzusu ətrafında başlatdığı müzakirə və bunun ardınca ölkəsində yüksələn tendensiya ilə davam etdirdiyi bu məsələnin S.Zurabişvili və onu dəstəkləyən siyasi qrup tərəfindən ölkədaxili təbliğatda alət kimi istifadə edilməsi heç bir şübhə doğurmur.

Xanım Zurabişvilinin ölkəsinin sərhədlərinin təhlükəsizliyi mövzusunda narahatlığı varsa, məntiqlə bunu digər daha "həssas qonşularla sərhəd" mövzusunda, ölkəsinin pozulmuş ərazi bütövlüyü istiqamətində ifadə və nümayiş etdirmək yerinə düşərdi.

Çünki Gürcüstanın 4 qonşu dövlətlə sərhədindən elə ən təhlükəsizi strateji tərəfdaşı olan Azərbaycanladır.

Əlbəttə, bu mövzu ətrafında, iki dost ölkə arasında sərhəd məsələləri ətrafında gərginliyin artmasına yönəlik fəaliyyətlər həmişə mövcud olub və fikrimcə, bu yolverilməzdir. İstər Gürcüstanda, istərsə də Azərbaycanda cəmiyyət bu tip fəaliyyətləri həmişə narahatlıqla izləyib və bu məsələdə xoşməramlı və konstruktiv bir məcrada müzakirələr aparılması tərəflərin prioritet seçimi olub. Fikir versəniz görərsiniz ki, bu vəziyyətə daha çox sevinən Ermənistandır. Onların təbliğat maşını gərginliyin daha da qızışması istiqamətində fəaliyyət göstərir".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistan mediası Paşinyanı Çində keçirilən və 40 ölkənin rəhbərinin iştirak etdiyi "Bir kəmər, bir yol" tədbirində iştirak etməməyə görə ciddi tənqid atəşinə tutub. Bu xüsusda qeyd edilir ki, Paşinyandan əvvəlki ölkə başçısı Serj Sarkisyan da 2017-ci ildə keçirilən analoji tədbirdə iştirak etməyib.**

# Ermənistanın Çinlə bağlı aldadıcı taktikası, yeni "forpost" ideyası və Azərbaycan əleyhinə ola biləcək elementlər...



*"Hətta bu əlaqələrin yüksək səviyyəyə çatması belə, Azərbaycan üçün mənfi nəsə vəd etmir və bunun heç bir təhlükəsi ola bilməz"*

## *Qabil Hüseynli: "Ermənistan Çinlə yalnız Avrasiya İqtisadi İttifaqı çərçivəsində işləyə bilər"*

Bildirilir ki, ən azından, bu görüşdə iştirak etməklə Paşinyan dünyanın aparıcı dövlətlərinin başçıları ilə təmas qurmaq şansı qazanardı. Erməni analitikləri hesab edirlər ki, son vaxtlar Çin Ermənistanla münasibətlərə böyük önəm verməyə başlayıb. Hətta Çinin Avrasiya məkanında Rusiyadan sonra ikinci ən iri səfirlik binasını məhz Ermənistanda tikdiyi bildirilir. Səfirlik üçün 40 hektarlıq sahənin ayrıldığı deyilir. Erməni mediası yazır ki, Çin bununla Ermənistanda regiona təsir etmək üçün öz siyasi "forpost"unu qurmaqda maraqlıdır. Hətta Ermənistanın Çinlə silah tədarükünə dair danışıqlar apardığı barədə də yazılır.

Çinin Azərbaycanla da yaxşı siyasi və iqtisadi əlaqələri var. Bu baxımdan da maraqlıdır, Çin-Ermənistan münasibətlərinin yaxşılaşması Azərbaycan üçün ziyanlı və təhlükəli nəsə vəd edə bilərmi? Əlbəttə, bütün bunlar Ermənistanın Çinlə guya çox yaxşı münasibətlərdə olduğuna dair görüntü yaratmaq taktikası da ola bilər.

**Politoloq Qabil Hüseynlinin sözlərinə görə, Çin nəhəng ölkədir və dünyada önəmli söz sahibinə çevrilib:** "Artıq deyirlər ki, dünya ikiqütblü idarəçilikdən üçqütblüyə keçib. Çin nəhəng iqtisadiyyata malikdir və bu göstərici günü-gündən inkişaf edir. Nüvə arsenalı olan ölkədir. Güclü hərbi qüdrəti var. Təbii ki, belə ölkə öz təsir dairəsini genişləndirməkdə maraqlıdır. Ermənistanla münasibətlərə gəldikdə isə, Rusiya heç vaxt Pekinə imkan verməz ki, İrəvanı öz siyasi "forpost"una çevirsin. Çünki Ermənistan bu xidməti, faktiki olaraq, Rusiyaya göstərir. Ancaq Çin tərəfi Ermənistanla əməkdaşlığa hazır olsa da, Ermənistan Avrasiya İqtisadi İttifaqının üzvü olaraq, azad ticarət zonası və ya tarif rejiminin dəyişməsi haqqında danışıqlar aparmaq iqtidarında deyil. Ermənistan Çinlə yalnız Avrasiya İqtisadi İttifaqı çərçivəsində işləyə bilər.

Ermənistanla Çin arasında ticarət dövriyyəsinin həcmi o qədər də böyük deyil. Ticarət dövriyyəsinə fikir versəniz görərsiniz ki, burda əsas payı Çindən Ermənistana idxal olunan mallar tutur. Bunu da, demək olar ki, dünyanın bir çox ölkəsi edir. Çünki Çin mallarına hər yerdə tələbat var. Çin Azərbaycanla hazırda olan münasibətləri Ermənistanla müqayisədə qat-qat yaxşıdır. Hansısa ölkədə böyük səfirlik binasının tikilməsi heç də o anlama gəlmir ki, həmin ölkələr qardaşlaşırlar. Çinin həmin ölkədə siyasi mövqeyinin güclənməsinə heç Rusiyanın özü də imkan verməz. Bu, Moskvanın siyasi maraqlarına cavab vermir. Çin sərhəd baxımından da regiona yaxın deyil, buna görə də həmin ölkənin buradakı proseslərə təsir imkanları ciddi ola bilməz.

Eyni zamanda, Çin Azərbaycanla olan gözəl iqtisadi və siyasi əlaqələrini Ermənistana görə qurban verməz. Çünki bizim bir çox iri layihədə birgə əməkdaşlığımız var. Bu baxımdan da hətta bu əlaqələrin yüksək səviyyəyə çatması belə, Azərbaycan üçün mənfi nəsə vəd etmir və bunun heç bir təhlükəsi ola bilməz. Səfirliyin binasının bir qədər geniş tikilməsi Ermənistanı şirnikləndirmək məqsədini güdür.

**Çin görür ki, səfalət içərisində çabalayan ölkənin iqtisadiyyatından yaxşı yararlanmaq olar, bu səbəbdən də bəzi gedişatlar edir. Narahatlıq üçün ciddi əsas görmürəm".**

***Məhəmmədəli QƏRİBLİ***

**Almaniya kəşfiyyatı radikal sağçıların təhlükəli planları ilə bağlı hesabat hazırlayıb. Hesabatda radikal sağçıların vətəndaş müharibəsi ssenarisi və sabitliyin pozulmasına hazırlaşdığına dair ipucları var.**

# Almaniya sağ radikallarının müharibə planları və erməni mafiyasının azərbaycanlılara qarşı mümkün fəaliyyətləri...




*"Belə ehtimallar barədə alman polisinə və digər əlaqədar qurumlara məlumat verilməlidir"*

## *Elşən Mustafayev: "Bu məsələdə soydaşlarımız zərər görə bilərlər"*

Almaniya kəşfiyyatının radikal sağçılarla bağlı hazırladığı gizli hesabatı "Welt am Sonntag" qəzeti yayıb. Almaniyada zorakılığa meylli radikal sağçılardan gələ biləcək təhlükənin artdığına işarə edilən hesabatda bildirilir ki, radikal təşkilatlar və onlardan kənarda olan qüvvələrdən də istifadə edilməsi mümkündür.

Çox sayda radikal sağçının bir neçə ay və ya bir neçə ildən bəri aktiv olduğu, bunların bir qisminin kimliyinin məlum olmadığı bildirilən hesabatda radikalların böyük əksəriyyətinin təxminən 30 yaşlı kişi olduğu yazılıb. Hesabat müəlliflərinə görə, onların arasında polis və əsgərlər də var.

Bir-birilə əsasən internet vasitəsilə əlaqə saxlayan radikal sağçıların vətəndaş müharibəsi ssenarisi və sabitliyin pozulmasına hazırlaşdıqlarına dair ipucları ələ keçirilib. Onların bombalı hücum məşqləri etdikləri də deyilir.

Əslində, Almaniyanın rəsmi qurumu tərəfindən hazırlanan bu hesabatla bağlı diqqətçəkən başqa mətləblər də var. Məlumdur ki, Almaniyada çoxlu sayda azərbaycanlı miqrant yaşayır. Eyni zamanda, Almaniyada yaşayan əhalinin tərkibində türklərin önəmli çəkisi var. O da sirr deyil ki, məhz həmin ölkədə erməni kriminal qruplaşmalardan ibarət ciddi təşkilatlanmış mafiyalar fəaliyyət göstərirlər. Hətta bu mövzuda sənədli film də çəkilib nümayiş olunmuşdu. Belə olan təqdirdə, Almaniyada təhlükə mənbəyinə çevrilən sağ radikallar ölkəni qarışdırmaq üçün erməni kriminal qruplaşmalarından soydaşlarımıza və türklərə qarşı təxribat törətməkdə istifadə edə bilərlərmi?

**Politoloq Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Almaniyanın müxtəlif şəhər və əyalətlərində şəbəkə halında erməni mafiya dəstələrinin, ailə klanlarının ağalıq etdiyi faktdır:** "Türingen əyalətindəki erməni mafiyasının Berlin, Leypsiq, Yena, Erfurt və Halle şəhərlərində formalaşmış şəbəkələri var. Nüfuzlu KİV-in məlumatlarında qeyd olunur ki, Erfurt şəhərində qısa qara gödəkçə geyinən "Hells Angels" adlı erməni mafiya dəstələri digər fərqli adda olan mafiya qrupları ilə əlaqəli şəkildə çalışırlar.

Türingen federal əyalət hökumətinin açıqladığı bilgilərə görə, həmin erməni qrupları əsasən narkotik satışı, avtomobil ticarəti və fahişəxanalardan qazanc əldə edirlər. Bir neçə il əvvəl Almaniyanın Erfurt şəhərində iki erməni cinayətkar qruplaşma arasında 2 nəfərin ölümü ilə bitən silahlı atışma baş vermişdi. İnsident iki erməni cinayətkar şəbəkənin daim toplaşdığı məkanların birində yaşanıb. Erməni klanları arasında ağalıq uğrunda baş vermiş həmin qanlı hadisə ilə əlaqədar başladılan böyük bir məhkəmə prosesinin sonunda 10 nəfər erməni həbs olunmuşdu.

Mərkəzi Almaniyanın Türingen əyalətinin Erfurt şəhərində ermənilərə məxsus "Jocker", "Black Jackett" və "United Tribuns" kimi müxtəlif adlar altında başqa-başqa erməni mafiya qrupları da hökmranlıq etməkdədirlər. Təbii ki, belə dərin köklər atmış mafiya Almaniyanın anarxistləri ilə də əlaqəlidir. O da faktdır ki, həmin erməni qruplaşmaları Ermənistanın siyasi hakimiyyəti və diasporu ilə sıx əlaqəlidir. Bəzi hallarda isə onların sifarişlərini də həyata keçirirlər. Yəni söhbət siyasiləşmiş kriminal qruplardan gedir. Bu məsələdə soydaşlarımız zərər görə bilərlər. Çünki Almaniyadakı sağ radikallarla erməni mafiyasını təmin edəcək qurbanlar sırasında migrant soydaşlarımız ola bilərlər. Bu onların ümumi maraqlarına tam cavab verir. Almaniyadakı sağ radikallar ölkədə qarşıdırma istəyirlərsə, erməni kriminallar onların işinə yaraya bilərlər. Ermənilər isə bu sifarişi təmin etmək üçün asanlıqla hədəf kimi ya soydaşlarımızı, ya da həmin ölkədə yaşayan türkləri seçə bilərlər. Həm öz milli maraqlarını təmin edərlər, həm də verilən sifarişi icra etmiş olarlar. Bu baxımdan da soydaşlarımız xüsusilə ayıq-sayıq olmalıdırlar. Belə ehtimallar barədə alman polisinə və digər əlaqədar qurumlara məlumat verilməlidir".

***Məhəmmədəli QƏRİBLİ***

# Gələn ilin yanvarınadək Azərbaycandan 5 min Çin vaqonu keçəcək...

**Dünya iqtisadiyyatında son illər ərzində rəqabət mühitinin daha da kəskinləşməsi, ölkələrin iqtisadi inkişafını təmin etmək məqsədilə qlobal miqyasda ən müxtəlif layihələrlə çıxış etməsi müşahidə edilməkdədir. Bu fonda son dövrlərin ən çox diqqət cəlb edən layihələrindən biri də Çinin hələ 2010-cu ilin əvvəlində irəli sürdüyü, Azərbaycanın da elə ilk günlərdən dəstəklədiyi "Bir kəmər, bir yol" layihəsidir.**




Bir çox ekspertlər bildirir ki, "Bir kəmər, bir yol" layihəsi beynəlxalq iqtisadi əməkdaşlığın yeni uğurlu modeli sayıla bilər. Yeni "İpək Yolu" kimi də dəyərləndirilən layihə həm də yeni iqtisadi əməkdaşlıq konsepsiyasını özündə ehtiva edir. Daha əvvəl mövcud olmuş layihələri birləşdirən bu konsepsiya yerüstü və dəniz nəqliyyatı infrastrukturunun inkişafı vasitəsilə iqtisadiyyatın qloballaşdırılması və inteqrasiya proseslərinin gücləndirilməsi ideyalarına əsaslanır. Yeni söhbət burada iki əsas istiqamətdən gedir: "İpək Yolu İqtisadi Kəməri" və "Dəniz İpək Yolu". Yerüstü nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi üzrə təklif edilən mexanizmlər əsasən Çindən Avropaya konteyner daşımalarını nəzərdə tutur. İndiyədək yük göndərənlər 90 faiz hallarda dəniz daşımalarına üstünlük verib. Bu cür daşımalar ənənəvi olaraq daha sərfəli çatdırılma variantı hesab edilir. Amma hazırda konteyner qatarları lider mövqelərə çıxır və daşıma baxımından onlar daha sərfəli sayılır. Dəmir yolu daşımaları üzrə ekspert Dmitri Poxodenko bunu belə izah edir: "İpək yolu"nda yerüstü marşrutların inkişafı Çin dövlət hakimiyyətinin təşəbbüsüdür. O cümlədən, Çindən Avropaya dəmir yolu nəqliyyatı axınının artması Avropa marşrutlarında işləyən dəmir yolu operatorlarının subsidiyalaşdırılması ilə izah edilir. Çin ərazilərindən "İpək yolu"nun keçdiyi ölkələrin dəmir yolu infrastrukturunun inkişafına da sərmayə qoyur. Çinin Dövlət Şurası gözləyir ki, 2020-ci ilədək Avropaya 5000 yük qatarı yola düşəcək. Dəmir yolu əlaqəsinin optimallaşdırılması sistematik xarakter daşıyacaq: Avropa İttifaqı və MDB ölkələrinə müntəzəm yük qatarları göndərən Çinin dəmir yol stansiyalarının sayı hər il artır". "Bir kəmər və bir yol" təşəbbüsü çərçivəsində dəmir yolu daşımaları təkcə konteyner daşımalarını əhatə etmir, həm də sürət qatarlarından istifadəni nəzərdə tutur. Bu xüsusda istifadəyə verilən Bakı-Tiflis-Qars dəmir yolu, eləcə də onun da daxil olduğu Transxəzər Şərq-Qrəb Nəqliyyat dəhlizi indi, ekspertlərin fikrincə, Azərbaycanın "Bir kəmər, Bir yol" strategiyasına ən böyük töhfəsidir.

Yuxarıda qeyd olunduğu kimi, "Bir kəmər, bir yol" təşəbbüsünə Qafqaz regionunda dəstək verən ilk ölkə Azərbaycan olub. İndiki şəraitdə də "Bir kəmər, bir yol" strategiyasının həyata keçirilməsində Azərbaycan logistika mərkəzi, qovşaq və körpü rolunu oynayır. Bura ölkənin coğrafi mövqeyi də təsir edir. Çünki Azərbaycan Şimalla Cənubun, Şərqlə Qərbin qovuşuğunda yerləşir, Asiya və Avropa qitələri arasında körpü rolunu oynayır. Bu baxımdan Azərbaycan nəqliyyat və geosiyasi mövqe üstünlüyünə malikdir. İndiki durumda Avropa ilə Çin arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı-Tiflis-Qars xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi önəmli infrastruktur layihələri "Bir kəmər, bir yol" təşəbbüsü və ümumilikdə regional əməkdaşlıq üçün böyük əhəmiyyət daşıyır. Xüsusən də Bakı-Tiflis-Qars dəmir yolu xətti sayəsində Çindən Avropaya yüklərin daşınma müddəti xeyli azalıb. Bu o deməkdir ki, Çindən daşınan yüklər iki həftə müddətində Azərbaycandan keçərək Avropaya çatır.

Eləcə də Bakı Beynəlxalq Dəniz Ticarət Limanı bu prosesdə xüsusi çəkisini artırır. "Bir kəmər, bir yol" layihəsi bütün bunlar baxımından Azərbaycan üçün vacibdir. Ən azından, Azərbaycan üçün beynəlxalq yükdaşımaların həcminin artırılması baxımından bu layihə çox əhəmiyyətlidir. Son illər "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri çərçivəsində Azərbaycandan həyata keçirilən beynəlxalq yükdaşımaların həcmində artımlar var. Ölkəyə daxil olan yüklərin təxminən 90 faizi tranzit olaraq digər ölkələrə aparılır. "Bir kəmər, bir yol" layihəsi isə bütün bunlara yeni töhfələr verir. Belə vəziyyətdə elektron xidmətlərdən istifadə olunması, prosedurların sadələşdirilməsi Azərbaycanı beynəlxalq yükdaşımalar baxımından cəlbedici edir. Azərbaycan Gürcüstan və Qazaxıstanla vahid tarifin tətbiq edilməsi ilə bağlı razılıq əldə edib. Bu da iş adamları üçün beynəlxalq yükdaşımalar baxımından çox vacibdir. Ekspertlər hesab edir ki, "Bir kəmər, bir yol" layihəsi Azərbaycanda qeyri-neft sektorunun inkişafı, fərqli mənbələrdən daxilolmanın artırılması baxımından çox vacibdir. Layihə, Azərbaycanın dövlət gəlirlərinin artması ilə yanaşı, ölkəyə daxil olan valyuta həcminin də artmasına müsbət təsirini göstərəcək. Elə iqtisadçı ekspert Vüqar Bayramov da məsələyə bu prizmadan yanaşaraq qeyd edir ki, "Bir kəmər, bir yol" layihəsi qlobal əhəmiyyət daşıyır. Bu layihə dünya iqtisadiyyatının 40, əhalisinin isə 65 faizini əhatə edir.

O qeyd edib ki, "Bir kəmər, bir yol" layihəsinin reallaşması nəqliyyat dəhlizlərinin inkişafı baxımından çox mühümdür: "Söhbət Asiyadan Avropaya, xüsusən də Çindən Avropaya daşınmadan gedir. Bu layihənin reallaşması üçün tələb olunan investisiyanın həcmi də kifayət qədər çoxdur. Çin 225 milyard dollar sərmayə qoyub". Vüqar Bayramovun sözlərinə görə, "Bir kəmər, bir yol" multinəqliyyat növlərindən istifadə edilməsinə imkan yaradacaq: "Qlobal layihə Asiya və Avropa arasındakı ticarət dövriyyəsinin artmasına yol açacaq. Bu layihə Azərbaycana da böyük iqtisadi dividendlər qazandıracaq. Ölkəmiz "Bir kəmər, bir yol" vasitəsilə beynəlxalq yükdaşımalardan böyük gəlir əldə edəcək. Azərbaycan yükdaşımalar sahəsində müasir infrastruktur yaradıb. Xüsusən də Xəzərin hüquqi statusunun müəyyənləşməsi bu işin reallaşmasına təsir edən amildir. Qeyri-neft sektorunun inkişafı ilə yanaşı, beynəlxalq yükdaşımalarda ölkəmizə böyük valyuta daxil olacaq".

***Nahid SALAYEV***

# Kredit faizləri barədə maddə banklar haqda yeni qanundan niyə çıxarıldı...

**Milli Məclisin yaz sessiyasında müzakirəyə çıxarılan qanun layihələrindən biri də "Banklar haqqında" qanun layihəsi idi. Qanun layihəsinə bəzi əlavələrin olunması, dəyişikliklərin edilməsi parlamentarilər tərəfindən müzakirə olunurdu. Həmçinin, qanun layihəsinə bankların kredit faizlərinin yuxarı həddinin müəyyən olunması da daxil idi.**




*"Bank kreditləri faizlərinin aşağı salınması lazımdır, amma..."*

## *Vahid Əhmədov: "Bu layihə həm də ölkədə bankların sağlamlaşdırılması islahatları ilə ziddiyyət təşkil edirdi"*

Lakin "Banklar haqında" qanun layihəsi müzakirədən çıxarılıb. Səbəb kimi isə qeyd olunur ki, nəzərdə tutulan dəyişikliklər öncədən düzgün deyildi və bazar iqtisadiyyatı prinsipləri ilə uyğunlaşmırdı. **Milli Məclisin İqtisadiyyat, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, adıçəkilən qanun layihəsi müzakirədən çıxarılıb.** Qanun layihəsinin müzakirədən çıxarılmasının səbəbi barədə danışan millət vəkili qeyd edib ki, bu layihə həm də ölkədə bankların sağlamlaşdırılması islahatları ilə ziddiyyət təşkil edirdi. "Bank kreditləri faizlərinin aşağı salınması lazımdır, amma bu, inzibati müdaxilə yolu ilə yox, bazar iqtisadiyyatı prinsipilə həllini tapmalıdır".

Millət vəkilinin sözlərinə görə, bankların kredit faizlərinin yuxarı həddini müəyyən etmək barədə "Banklar haqqında" qanun layihəsində nəzərdə tutulan müddəa başından düzgün deyildi və bazar iqtisadiyyatı prinsipləri ilə uyğunluq təşkil etmirdi.

V.Əhmədov onu da vurğuladı ki, bank faizlərini bazar tənzimləməlidir. Bankların faiz dərəcələrinin yuxarı həddinin müəyyən olunması ilə bağlı dəyişikliyin hazırlanması üçün Prezident İlham Əliyev tərəfindən tapşırıq verilmişdi. Ancaq sonradan müəyyən müzakirələr aparıldı və qərara alındı ki, bank faizləri aşağı salınsın: "Məlumdur ki, hazırda bank faizləri yüksəkdir və onun aşağı salınması ciddi şəkildə tələb olunur".

Həmsöhbətimiz qeyd etdi ki, hazırda bank sistemində müəyyən irəliləyişlər var. Prezident İ.Əliyev tərəfindən bank sisteminin kapitallaşması, onun likvidliyi ilə əlaqədar müəyyən addımlar atılıb: "Məlumdur ki, problemli kreditlər məsələsinə də son qoyuldu. Prezidentin sərəncamı ilə uzun müddətdir hər kəsin həllini səbrsizliklə gözlədiyi problem çözüldü. Kompensasiyaların geri qaytarılması üçün müəyyən qədər vəsait ayrıldı. Banklar da bunu nəzərə alıb kredit faizlərini aşağı salmalıdırlar".

Millət vəkilinin sözlərinə görə, son illər Azərbaycanın bank sistemi çox əziyyət çəkib. Devalvasiyalar bank sektoruna müəyyən dərəcədə zərər yetirib. Onun sağlamlaşdırılması üçün bir sıra işlər görmək lazımdır. Elə etmək lazımdır ki, bankda kapital, likvidlik problemi olmasın.

Belə olarsa, kredit faizləri aşağı salınar. Bank sektorunun tam şəkildə sağlamlaşdırılması üçün çoxlu sayda işin görülməsinə ehtiyac var.

***Günel CƏLİLOVA***

**Fəaliyyətini davam etdirən, təkcə Ermənistan yox, bütün region üçün ciddi təhdid yaradan "Metsamor" atom elektrik stansiyasının (AES) bağlanması bu gün beynəlxalq ictimaiyyətin də xüsusi diqqət mərkəzindədir. Proseslərin gedişi isə bu xüsusda Azərbaycanın illərdir irəli sürdüyü tələbin reallaşması üçün yeni şəraitin yaranmaqda olduğunu göstərir.**



# BMT və Avroittifaqın nüvə qaçaqmalçılığına qarşı mübarizə layihəsi - "Metsamor" nüvəsinin terrorçuların əlinə düşməsi real təhlükə kimi...

Söhbət Birləşmiş Millətlər Təşkilatı və Avropa İttifaqının (Aİ) nüvə terrorçuluğu təhlükəsinin qarşısını almaq üçün nüvə materiallarının "qara bazar"a yol tapmasına qarşı beynəlxalq əməkdaşlığı möhkəmləndirmək istiqamətində birgə çağırışlarından, əməli fəalliyyətlərindən gedir.

Adıçəkilən qurumlar qeyd olunan məqsədlə qanunvericilik bazasının möhkəmləndirilməsi və sərhəd nəzarətinin gücləndirilməsini nəzərdə tutan birgə layihə hazırlayıblar. Layihədə, həmçinin, bu sahədə hökumətlər və hüquq-mühafizə orqanları arasında informasiya mübadiləsi planlaşdırılır. BMT-nin Antiterror İdarəsinin rəhbəri Vladimir Voronkov bildirib ki, terrorçuların nüvə və radioaktiv materiallar əldə etməsi risqi bəşəriyyətə, beynəlxalq sülhə və təhlükəsizliyə ciddi təhdiddir. O təəssüflə qeyd edib ki, daxil olan məlumatlara görə, həmin materialların terrorçu qruplaşmaların əlinə düşəcəyi ehtimalı realdır. Layihənin təqdimatı ilə bağlı tədbirdə BMT və Avropa İttifaqı bütün ölkələri "Nüvə terrorçuluğu əməlləri ilə mübarizə haqqında" Beynəlxalq Konvensiyanı ratifikasiya etməyə və onun müddəalarını tam şəkildə yerinə yetirməyə çağırıb. Bu sənəd 2005-ci ildə BMT Baş Assambleyasında qəbul olunub və hazırda 115 ölkə tərəfindən ratifikasiya edilib. Qeyd edək ki, Prezident İlham Əliyevin 2008-ci il dekabrın 2-də imzaladığı Qanunla "Nüvə terrorçuluğu əməlləri ilə mübarizə haqqında" Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 2005-ci il aprelin 13-də qəbul olunmuş Beynəlxalq Konvensiya Azərbaycan Respublikasının ona dair qeyd-şərti və bəyanatı ilə təsdiq edilib.

BMT və Avropa İttifaqının birgə layihəsi növbəti üç il ərzində həyata keçiriləcək. Brüssel layihənin reallaşmasına 5 milyon avro vəsait ayırıb. BMT-də dəfələrlə vurğulayıblar ki, nüvə və digər radioaktiv materialların etibarlı qorunmasını təmin etmək və onların "qara bazar"a yol tapmasının qarşısını almaq üçün beynəlxalq əməkdaşlıq gücləndirilməlidir. İndi hesab edilir ki, yaranmış durumdan Azərbaycan, eləcə də "Metsamor" AES təhdidi ilə üzləşən digər ölkələr istifadə edib, Ermənistana qarşı daha sərt tədbirlərin görülməsinə nail ola bilər. Çünki ermənilərin nüvə qaçaqmalçılığı ilə məşğul olması, radioaktiv materialları ölkədən çıxararaq satmaq cəhdlərinə dair çoxsaylı faktlar mövcuddur. Radioaktiv materialların mənbəyi qismində məhz "Metsamor" AES çıxış edir. Belə materialların perspektivdə İŞİD kimi terror qruplaşmalarının əlinə düşəcəyi isə istisna olunmur. Özü də o fonda ki, İŞİD-in Ermənistana marağı artır və bu ölkədə İŞİD tərəfdarı olanların sayında da artım qeydə alınır. Elə indinin özündə də Ermənistanda AES-in mövcudluğu nüvə materialları qaçaqmalçılığı ilə məşğul olan transmilli cinayətkar qrupların da regiona diqqətini artırır. Artıq ermənilərin radioaktiv materialları ölkədən çıxararaq müxtəlif cinayətkar qruplara satmaq cəhdlərinə dair onlarla fakt mövcuddur. Bütün bunlar üzərində isə dünya ictimaiyyəti daha ciddi düşünməlidir. Digər tərəfdən unutmaq olmaz ki, Ermənistan tərəfi işğal altında saxladığı Azərbaycan torpaqlarında terrorçu təşkilatlara təlim düşərgəsi yaradıb. Heç kim zəmanət verə bilməz ki, terrorçuluğu dəstəkləyən, ayrı-ayrı terror təşkilatları ilə əməkdaşlıq edən Ermənistan "Metsamor" AES-in nüvə tullantılarını onlara ötürmür. Bundan əlavə, işğalçı ölkə stansiyanın nüvə tullantıları vasitəsilə "çirkli bomba" hazırlamağa da maraq göstərir. Hətta Ermənistanın bəzi generalları bundan əvvəl mətbuata verdikləri açıqlamalarda Azərbaycanı radioaktiv tullantılardan hazırlanan "çirkli silah"la təhdid edib. Ermənistanın keçmiş baş naziri Qrant Baqratyan kimi, general-mayor Arkadi Ter-Tadevosyan da dəfələrlə Azərbaycan əleyhinə hərbi əməliyyatlarda radioaktiv silahdan istifadə etmək niyyətlərini bildirib. Məhz bu vəziyyətdə hesab olunur ki, BMT və Avropa İttifaqının yuxarıda barəsində bəhs edilən birgə layihəsi fonunda "Metsamor" AES-in fəaliyyətinin dayandırılması üçün fəaliyyət genişləndirilməlidir. Çünki Ermənistandakı nüvə reaktoru tək təhlükəsizlik üçün təhdid deyil, həm də "çirkli bomba" üçün potensial radioaktiv material mənbəyidir. Etiraf etməmələrinə baxmayaraq, bədnam qonşularımız hələ ki, AES-lərdə cavabı tapılmamış tullantı problemini sadə yolla həll edir.

Birincisi, bu tullantılar işğal olunmuş ərazilərimizdə yerləşdirilir, bununla da ümumi radioaktiv fon gücləndirilir. İkincisi, böyük ehtimal ki, işğal altında olan Azərbaycan ərazisi nüvə materiallarının qanunsuz dövriyyəsində tranzit marşrutu kimi istifadə olunur. Məhz buna qarşı beynəlxalq ictimaiyyətin daha sərt formada hərəkətə keçməsi olduqca zəruridir.

***Tahir TAĞIYEV***



# Trampa xəbərdarlıq... Sanksiyalar ABŞ-ı İranla müharibəyə sürükləyir

**ABŞ Prezidenti Donald Tramp İrana daha ağır sanksiyalar tətbiq edəcəyi halda, ABŞ-ı yeni bir müharibəyə sürükləyəcək.**

Baki-xeber.com xəbər verir ki, bu barədə "New York Times" nəşrində dərc edilən məqalədə deyilir. "Tramp İrana daha çox sanksiya tətbiq etmək istəyir. Bu bizi müharibəyə sürükləyə bilər" başlıqlı yazıda İrana qarşı yeni sanksiyalar və təsirləri geniş təhlil edilir.

Tramp ötən il Livanın "Hizbullah" təşkilatına gedən maliyyə yardımını kəsmək üçün İran neftinə sanksiya tətbiq edərək, Çin, Hindistan, Türkiyə, Cənubi Koreya və Yaponiya kimi böyük alıcı ölkələri bu məsələdən kənarda saxladı. Tehranın bu sanksiyalar qarşısında səssiz qalmasından güc alan Trampın indi də sözügedən ölkələrə İrandan neft idxal etmələrini dayandırmaq üçün təzyiq göstərməyə başladığı bildirilir.

Tramp hökuməti İsrail və müttəfiqləri adına bölgədəki fəaliyyətinə görə İranı cəzalandırmaq istəyir.

Qeyd edilir ki, İrana qarşı artan sanksiyalar ABŞ-ın özü üçün təhlükəli bir hal almağa başlayıb. Bu təxribatçı sanksiyalar İranın yenidən böyük ölçüdə uranı zənginləşdirməsinə və amerikalılara qarşı hücuma yol aça bilər. ABŞ-ı, Donald Trampın qarşısını almağa çalışdığı yeni bir Yaxın Şərq savaşına sürükləyə bilər.

Rəsmi Tehranın sanksiyalara qarşı ilk mərhələdə 2020-ci ildə Trampın yenidən prezident seçilməməsi ümidilə gələcək 18 ay boyunca gözləmə mövqeyi seçə biləcəyi qeyd edilən məqalədə Tramp təkrar seçiləcəyi halda İranın sərt cavab verə biləcəyi, bu vəziyyətdə Trampın hücumları gözardı etmək və ya cavab verərək yeni bir müharibənin başlanması arasında seçim etmək məcburiyyətində qala biləcəyi iddia edilir.

"Tramp hökumətinin nəzərə aldığını düşünmədiyimiz şey qarşıdurmanın ehtimal edilməsidir. Çünki ABŞ İrana məhdud seçimlər verir. ABŞ dövlət katibi Mayk Pompeo hökumətin müzakirələrə açıq olduğunu bildirərkən Tehranın mövcud xarici siyasətindən tamamilə imtina etməsini tələb edən şərtlər siyahısı təqdim edir. Bu siyahıda İranın nüvə başlıqlı raket istehsalını dayandırmasından tutmuş, İsrailə qarşı düşmən münasibətdən imtina etməsinə qədər tələblər yer alıb" - məqalədə deyilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# ABŞ nəticəsi olan görüş istəyir, İrəvana təzyiqlər yenidən başlayır - XİN başçılarının Vaşinqton görüşü...

**Son günlərə qədər İrəvandan gələn təkziblərə baxmayaraq, Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin növbəti görüşünü ABŞ-ın təşkil edəcəyi, nəhayət, işğalçı ölkənin özü tərəfindən də təsdiq edildi. Belə ki, Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan azərbaycanlı həmkarı Elmar Məmmədyarovla növbəti görüşünün məhz Vaşinqtonda baş tutacağını bildirib.**

Erməni nazir "1in.am" saytı vasitəsilə yayımlanan onlayn mətbuat konfransı zamanı bu xüsusda deyib: "ATƏT-in Minsk Qrupunda üç həmsədr var. Bizim Parisdə və Moskvada görüşlərimiz olub, üçüncü həmsədr də var. Həqiqətənmi üçüncü görüş Vaşinqtonda keçirilə bilər? Əlbəttə. Həqiqətənmi biz buna hazırıq? Əlbəttə. Növbəti mərhələ olmalıdır axı".

Nazirin sözlərinə görə, amerikalı həmkarları öz dəvətlərini təsdiqləyən kimi bu barədə konkret danışmaq olar: "Amerikalı həmkarlarımız adından danışmaq istəmirəm, onlar hazırlaşmalıdırlar". ABŞ isə belə bir görüşü təşkil etməkdə maraqlı olduğunu bildirir və buna da müəyyən hazırlıq işləri görülür. Qeyd edək ki, Azərbaycan və Ermənistan XİN rəhbərlərinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə növbəti görüşünü Vaşinqtonda keçirməyi məhz ABŞ özü təklif edib. ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberger bu xüsusda bildirib ki, Ermənistan və Azərbaycan XİN başçılarının Dağlıq Qarabağ üzrə danışıqları Vaşinqtonda davam etdiriləcək: "ATƏT-in Minsk Qrupu həmsədrlərinin məqsədi Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həll edilməsi üçün danışıqların davam etdirilməsidir. Mən Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqtonda keçiriləcək növbəti görüşünü səbrsizliklə gözləyirəm". İndi maraq doğuran məsələ nazirlərin Vaşinqton görüşünün hansısa nəticələrə gətirib çıxaracağı ilə bağlıdır. Eyni zamanda, burada ABŞ-ın tutacağı mövqe, məsələnin həlli istiqamətində fəallığı da xüsusi maraq doğurur.

ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi Azərbaycanın ABŞ-dan gözləntisi ondan ibarətdir ki, hazırda danışıqlar masasında olan təkliflərə uyğun olaraq, digər həmsədr dövlətlərlə birlikdə münaqişənin həlli istiqamətində səylərini artırsın. Nəticə etibarilə, regionda davamlı sülh, sabitlik və hərtərəfli regional əməkdaşlıq təmin olunsun. Əslində, Vaşinqton Bakının bu niyyətinə müsbət yanaşdığını və eyni mövqeni bölüşdüyünü gizlətmir. Bunu ötən ilin oktyabrında Azərbaycana səfərinin nəticələri ilə bağlı verdiyi açıqlamalarda ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton da təsdiq edib. Səfəri fonunda Dağlıq Qarabağ münaqişəsinə xüsusi diqqət ayrıldığını diqqətə çatdıran ABŞ rəsmisi qeyd edib ki, bu problemin həlli Birləşmiş Ştatlar üçün də mühüm əhəmiyyət kəsb edir. Bolton əlavə edib ki, ATƏT-in Minsk Qrupunun həmsədri kimi ABŞ bundan sonrakı dövrdə də münaqişənin həlli istiqamətində səylərini davam etdirəcək və nəticələr əldə olunmasına çalışacaq.

Xatırladaq ki, burada nəticələr deyərkən Azərbaycanın ərazi bütövlüyünün bərpası nəzərdə tutulur. Hesab edilir ki, regionda daha fəal siyasət yürütmək istəyən ABŞ Ermənistanın bu mövqeni qəbul etməsi üçün bütün zəruri imkanlara malikdir. Nazirlərin Vaşinqton görüşündə ABŞ-ın bu imkanları işə salması istisnalıq təşkil etmir.

Erməni mediası isə yazır ki, əslində, hələ nazirlərin ABŞ görüşündən əvvəl Vaşinqtonun İrəvana təzyiqləri başlayıb. Əsas səbəb də odur ki, ABŞ nəticəsi olan görüş istəyir. "İravnuk" qəzeti yazır ki, son günlərdə Ermənistanın baş naziri Nikol Paşinyanın ABŞ-ı tənqid hədəfinə çevirməsinin əsas səbəblərindən biri də məhz budur. Xatırladaq ki, Paşinyan Rusiyanın "Nezavisimaya qazeta" nəşrinə müsahibəsində ABŞ-ı tənqid edib. Paşinyanın bu davranışını şərh edən politoloq, sabiq dövlət müşaviri Qabil Hüseynli bildirir ki, Ermənistan baş nazirini bu açıqlamanı verməyə vadar edən ciddi səbəblər var: "Erməni xislətidir: necə sərf edirsə, onun ardınca qaçır. Paşinyan dünənə qədər Qərb ölkələrinin qapısının ağzında dilənçi pozasında dayanıb pul dilənmirdi? Dünənə qədər özünün Qərbə inteqrasiya siyasətini axıra qədər aparacağını söyləmirdi? İndi deyir ki, onun qədər Amerikanı tənqid edən ikinci bir siyasi xadim yoxdur. Paşinyandan soruşmaq lazımdır ki, sən Putindən də çox ABŞ-ı tənqid etməyə başlayırsan? Özü də o hansı arqumentlərlə Vaşinqtonu tənqid edir? Hansı eyiblərini açıb ortaya qoyur? Qərbdən əliboş qayıdan Paşinyan yaxşı başa düşür ki, Rusiyadan başqa istinad nöqtəsi yoxdur. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesində onun arxasında Rusiya dayanır. Prosesin ləngiməsi xəttində ona Moskva kömək edir. Azərbaycan ordusunun hərbi hazırlıqlarını görüb bəzən vahiməyə düşəndə yenə onu sakitləşdirən Moskva olur. Bu kimi nüanslar Paşinyanı Putini və Rusiyanı daha çox sevməyə vadar edir".

Amma məsələ həm də burasındadır ki, əslində, Rusiya da Paşinyana hansısa ciddi yardımlar göstərmək niyyətindən uzaqdır. Ermənistanın eks-prezidenti Robert Köçəryanın mətbuat katibi Viktor Soqomonyan bildirir ki, məhz belə vəziyyətdə İrəvan Qarabağ danışıqlarında ən zəif mövqe sahibi kimi çıxış edir: "Paşinyanın yanlış xarici siyasəti üzündən Ermənistan hökuməti hələ də hansı prinsiplər əsasında danışıqlar aparacağını bəyan etmir. Çünki ona nə ABŞ, nə Rusiya, nə də Avropa yardım edəcək. Bu səbəbdən də Ermənistan hökuməti hansı prinsiplər əsasında danışıqlar aparacağını bəyan etmir. Bununla bağlı müəyyən təhlükələr var. Xüsusilə ehtiyat edirik ki, erməni hökumətinin bu siyasətini beynəlxalq ictimaiyyət qeyri-konstruktiv adlandırsın. Bu isə döyüş fəaliyyətlərinin yenilənməsinə gətirib çıxara bilər. Bu arzuolunmaz ssenaridir. Ümid edirəm ki, ən yaxın zamanda erməni tərəfi özünün prinsiplərini elan edəcək. Amma bu ümidlər çox aşağı çəviyyədədir".

Ermənistan Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov da eyni mövqeni bölüşür. Onun sözlərinə görə, Ermənistanda transgenderlik təbliğ edilərkən Azərbaycan və Türkiyə birgə geniş təlimlərə hazırlaşır: "Ermənistanda transgenderliyin təbliğ edildiyi, Nikol Paşinyanın isə İrəvan küçələrində 124 milyonluq kababın dadına baxdığı bir vaxtda Azərbaycan və Türkiyə Azərbaycanda keçiriləcək birgə geniş təlimlərə hazırlaşır". O bu savaşda yaranmış vəziyyətdə ölkəsini yaxşı heç nə gözləmədiyini də xüsusi vurğulayır. Azərbaycan isə bu durumda ən yüksək səviyyədə bəyan edir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri münaqişənin nizamlanması üçün hüquqi əsas təşkil edir. Birmənalı olaraq Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı təsdiqlənir. Eləcə də erməni qoşunlarının Azərbaycan ərazilərindən tez bir zamanda, tam və qeyd-şərtsiz çıxarılması tələb edilir. Təbii ki, bu şərtlərə əməl edilməsə, Qarabağ savaşının başlanması qaçılmaz olacaq. Bakı bildirir ki, müzakirələrin predmetinin nə olmasından asılı olmayaraq, nəticə əldə olunmursa, danışıqları davam etdirməyin də mənası qalmır. Eskalasiyaya imkan verməmədən danışıqların aparılması təklifi məqbuldur. Lakin Azərbaycan öz ərazi bütövlüyünü təmin etmək istəyir və bu şərtə əməl edilməyincə eskalasiya təhlükəsi də aradan qalxmır.

İndi gözləntilər budur ki, qeyd olunan məqam Vaşinqtonda nazirlərin görüşündə mütləq şəkildə nəzərə alınacaq. Əks təqdirdə, regionda ABŞ-ın da marağında olmadığı savaşın başlanması qaçılmaz sayılır. Yalnız ABŞ və digər vasitəçilərin real addımları, Ermənistana təzyiqləri bu savaşı əngəlləyə bilər. Düzdür, fikirlər səslənir ki, Minsk Qrupunun tərəflərə təsir imkanları və sülhə məcbur etmə mexanizmləri mövcud deyil. Amma həmsədr ölkələr öz aralarında razılığa gələ bilərsə, münaqişənin həllinə nail olmaq, bunun üçün Ermənistana lazımi təzyiqlər göstərmək də mümkündür. Bunu yaxşı bilən həmsədrlər oun da anlayır ki, danışıqlar prosesini uzatmaq, mövcud status-kvonu uzun müddət qoruyub saxlamaq mümkün deyil. Ermənistanın da konstruktiv mövqe nümayiş etdirməkdən başqa çıxış yolu qalmayıb. Digər tərəfdən, münaqişənin mümkün eskalasiyası Rusiya üçün də, Qərb üçün də risq deməkdir. Bu, regional enerji layihələri üçün təhlükədir. Yeni savaş başlayarsa, proseslərə İran və Türkiyənin də müdaxilə edə biləcəyi ehtimalı yaranır. Bu isə artıq regional savaş anlamına gəlir. Qarabağ münaqişəsi Rusiya və Qərb üçün mövcud ziddiyyətlər şəraitində ciddi əməkdaşlıq stimulları yaradır. Elə buna görə də, ABŞ və Rusiya Bakı ilə İrəvanı danışıqlar masasına dəvət edir. Fransa da danışıqların davam etdirilməsini istəyir. Bu məsələdə ATƏT-in Minsk Qrupu həmrəylik nümayiş etdirir.

Nəticə etibarilə Minsk Qrupu artıq hər hansı bir uğura imza atmalıdır. Ən azı ona görə ki, danışıqların dayanması, yaxud nəticəsiz başa çatması indiki beynəlxalq proseslər fonunda Minsk Qrupunun özünün sıradan çıxmasına gətirib çıxara bilər.

Rusiya prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy da məsələyə bu prizmadan nəzər salır. Onun sözlərinə görə, hər kəsi razı salan sülh razılaşmasına nail olmaq asan olmayacaq:

"Bununla belə, Rusiya tərəfi Azərbaycanla Ermənistan arasında humanitar əlaqələrin qurulmasında vasitəçi olmağa hazırdır. Hər iki tərəfdən birincisi, bir-birinə etibar edən, ikincisi də qonşu ölkələrdə müəyyən nüfuza malik olan şəxslərin iştirak etməsi çox vacibdir. İndi bu prosesin başlana biləcəyinə dair bəzi əlamətlər var. Ermənistanda və Azərbaycandakı həmkarlarımla söhbət etməyə çalışacağam ki, görüm, ölkələri kim təmsil edəcək. Bu məsələdə ölkə rəhbərliyinin iradəsinin olduğu aydın məsələdir. Özü də Azərbaycan rəhbərliyi həmişə belə proseslərə hazır olduğunu söyləyib. Bu dəfə Ermənistan rəhbərliyi də bundan danışır. Görək, bundan nə alınacaq. Belə vəziyyətdə Minsk Qrupu da sülh əldə olunmasında hansısa nəticəyə imza ata bilər".

Beləliklə, proseslərin gedişi göstərir ki, Qarabağ məsələsində irəliləyiş olmasa, Minsk Qrupunun da istəmədiyi savaş qaçılmaz olacaq.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**



# Ceyhun Bayramovun birillik nazir fəaliyyətinə ekspert və ictimai baxışlar...

## *"C.Bayramov ona göstərilən etimadı layiqincə doğruldur"*



***Nadir İsrafilov:** "Ceyhun Bayramovun birillik fəaliyyəti dövründə hazırda təhsilə dair strategiyamız hazırlanıb, məqsədimiz müəyyənləşdirilib, vəzifələrimiz aydınlaşıb"*

***İlqar Orucov:** "C.Bayramov bir nazir kimi təhsil sahəsində islahatları uğurla davam etdirir"*



**Təhsil cəmiyyətin onurğa sütunudur. Sağlam təməllər üzərində inkişaf edən təhsil xalqın etibarlı gələcəyinin təminatçısıdır. Dövlətin təhsil siyasətini həyata keçirən Təhsil Nazirliyi təhsilin yeni inkişaf istiqamətlərini müəyyən edir. Təhsil ən mühüm sahələrdən biri kimi hər zaman dövlətin diqqət mərkəzindədir və təhsilin inkişafı üçün dövlət müxtəlif istiqamətlərdə tədbirlər həyata keçirir.**

Son illər özünün yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan təhsili dünya təhsil standartlarına uyğun istiqamət götürüb.

İstənilən sahənin hansı səviyyədə inkişafını analiz etmək üçün ilk növbədə həmin sahəyə rəhbərlik edən şəxsin fəaliyyətinə nəzər salmaq lazımdır.

23 aprel 2018-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə təhsil naziri vəzifəsinə təyin edilən Ceyhun Bayramovun bu vəzifədə fəaliyyətinin bir ili tamam olub.

Ekspertlər qeyd edirlər ki, nazir təyin edilməmişdən əvvəl təhsil nazirinin müavini, sonra isə nazir əvəzi olan C.Bayramov bu vəzifələrdə işlədiyi müddətdə Azərbaycan təhsil idarəçiliyinin nəbzini tuta bilib. Təhsil mütəxəssisləri hesab edirlər ki, C.Bayramov nazir təyin edildikdən sonra öz təcrübəsindən istifadə edərək bu sahənin inkişafına yönəlik addımlar atıb. Onların bildirdiyinə görə, bu bir il müddətində təhsil sahəsində bir sıra müsbət dəyişikliklər baş verib.

C.Bayramovun rəhbərlik etdiyi təhsil sisteminə gətirdiyi yenilikləri şərh edən təhsil mütəxəssisləri vurğulayırlar ki, bu bir ildə inkişafa köklənən mühüm addımlar atılıb.

**"Təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində köklü islahatların aparılması, təhsilimizin taleyüklü problemlərinin həll edilməsi..."**

Tanınmış təhsil eksperti Nadir İsrafilov "Bakı-Xəbər" bildirdi ki, C.Bayramovun fəaliyyətindən razıdır. "Mən bir səmimi insan, yetkin vətəndaş, istər nəzəri, istərsə də lazımi praktiki potensiala malik bir ziyalı kimi C.Bayramova hələ nazir müavini postunda olarkən öz hörmət və rəğbətimi bildirmiş, təhsil naziri səlahiyyətlərini icra edərək nazir kimi təsdiqlənərkən də mətbuata açıqlamamda demişdim ki, C.Bayramovun namizədliyi daha real görünürdü və gözlənilən idi.

Bu gün də öz əvvəlki mövqeyimdə qalıram. C.Bayramovun birillik fəaliyyəti dövründə hazırda təhsilə dair strategiyamız hazırlanıb, məqsədimiz müəyyənləşdirilib, vəzifələrimiz aydınlaşıb, sistemin daha da optimallaşdırılması və rasionallaşdırılması üçün konkret hədəflərimiz dəqiqləşib. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planında strateji hədəflər üzrə tədbirlərin həyata keçirilməsi üçün zəruri əsaslar, icra müddəti və icraçılar belə təsdiqini tapıb. Bircə qalır Fəaliyyət Planının icrasına ciddi nəzarətin həyata keçirilməsi və bu prosesin təmin edilməsində Təhsil Nazirliyi aparatı və təhsili idarəetmə sisteminin digər yuxarı eşalonlarında vakant olan yerlərə səriştəli, təhsili bilən və bu sahə ilə bilavasitə bağlı olan peşəkar kadrların seçilib yerləşdirilməsi, mobil və işgüzar komandanın formalaşdırılması və bütün heyətin strateji hədəflərə doğru səfərbər edilməsi... Hesab edirəm ki, iqtisadçı və hüquqşünaslıq ixtisasları üzrə əsaslı biliklərə yiyələnən, idarəetmə sahəsində müxtəlif vəzifələrdə kifayət qədər təcrübəyə malik, ən başlıcası isə 2013-cü ilin avqust ayından təhsil nazirinin müavini kimi məsul vəzifə daşıyan C.Bayramov ona göstərilən etimadı layiqincə doğruldur. Təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində köklü islahatların aparılması, təhsilimizin taleyüklü problemlərinin həll edilməsi istiqamətində öz hərtərəfli bilik və bacarıqlarını, idarəetmə sahəsində qazandığı təcrübəsini əsirgəmir".

**"Təhsil sahəsində görülən işlər bir ildə deyil, bir neçə ildən sonra üzə çıxır və bəhrəsini verir"**

N.İsrafilovun bildirdiyinə görə, ümumiyyətlə, gəldiyi qənaət budur ki, təhsil sahəsindəki uğur və nailiyyətləri görməmək və qiymətləndirməmək, ən azı, ədalətsizlikdən başqa bir şey deyil. "Bir də ki, təhsil sahəsində mövcud olan müəyyən problemləri bilavasitə nazirin adl ilə bağlamaq, onun fəaliyyəti ilə əlaqələndirmək kimi yanlış tendensiyadan nəhayət ki, əl çəkmək vaxtı gəlib çatıb. Belə ki, nazir başda olmaqla, Təhsil Nazirliyi təhsil sahəsində dövlət siyasətini və tənzimlənməsini, təhsil prosesinə ümumi rəhbərliyi həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Əlbəttə, "Strategiya"da da qeyd edildiyi kimi, təhsilin idarə olunmasında başlıca problemlərdən olan tənzimləmə, idarəetmə və nəzarət funksiyalarının dəqiq müəyyən edilməsi, təhsil müəssisələrinin idarəetmədə rolu ilə bağlı olan məhdudiyyətlərin aradan qaldırılması, dövlət təhsil müəssisələrinin maliyyə müstəqilliyinin təmin edilməsi, təhsil müəssisələri rəhbərlərinin tədrisin nəticələrinə görə məsuliyyətinin artırılması, peşəkarlığa əsaslanan stimullaşdırıcı əməkhaqqı sisteminin yaradılması və bir çox sahələrdə hələ də həllini gözləyən məsələlər var, bu istiqamətdə işlər ardıcıl və sistemli şəkildə davam etdirilməlidir və etdirilir də. Unutmayaq ki, təhsil həm də çoxsahəli və çoxaspektli əməkdaşlıq sahəsidir. Bir də ki, bir il qısa müddətdir və bu müddətə görə təhsil nazirinin işini qiymətləndirmək, hansısa subyektiv və konkret iddia irəli sürmək düzgün mövqe hesab edilə bilməz. Bir ildə görülən işlərin, qəbul edilən proqram və layihələrin nəticələri düşündüyümüz qədər də erkən deyil, yalnız bir neçə ildən sonra üzə çıxır. Təhsil sahəsində görülən işlər bir ildə deyil, bir neçə ildən sonra üzə çıxır və bəhrəsini verir" - deyə N.İsrafilov qeyd etdi.

**"Müəllimlərin işə qəbulunda yeniliyin tətbiq olunması, ali məktəb müəssisələrində imtahanların şəffaflığının təmin olunması..."**

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov da hesab edir ki, bu bir il ərzində C.Bayramov ona göstərilən etimadı doğruldub. "C.Bayramovun təhsil naziri təyin edilməsindən ötən bir il ərzində onun rəhbərliyi ilə təhsil sahəsində müsbətə doğru xeyli iş görülüb. Təhsil elə bir sahədir ki, orada islahatların kifayət qədər sürətlə həyata keçirilməsi, əlbəttə ki, mümkün deyil. Hətta qeyd etmək istəyirəm ki, özündən əvvəlki təhsil naziri Mikayıl Cabbarovun başladığı işləri C.Bayramov davam etdirdi. Bu özü də müsbət bir haldır. Mahiyyətcə onlar eyni komandada olan insanlardır. C.Bayramovu da məhz təhsil sektoruna M.Cabbarov gətirib. Bu gün təhsildə islahatlar davam edir. Müəllimlərin işə qəbulunda yeniliyin tətbiqi, ali məktəb müəssisələrində imtahanların şəffaflığının təmin olunması, tələbə köçürülməsi, direktorların təyin olunması və s. bu islahatlara aiddir. Bütün bunlar çox müsbət tendensiyalardır. Əlbəttə, təhsil hər bir ölkənin bel sütunudur və Azərbaycanda da cənab Prezident və eyni zamanda da Birinci vitse-prezident tərəfindən təhsilə qayğı və diqqət göstərilir, əhəmiyyət verilir. Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasətin vacib qolunu da təhsil təşkil edir. Təhsil Nazirliyinə də kimin rəhbərlik etməsi, cənab Prezidentin gördüyü işlərə təkan verməsi olduqca vacib idi. Hesab edirəm ki, C.Bayramov təhsil sahəsində islahatları uğurla davam etdirir.

Təhsildə islahatlar tez bir zamanda bəhrəsini vermir, çünki bu, çoxpilləli prosesdir. Azərbaycan təhsilinin dünya təhsili ilə ayaqlaşması üçün, əlbəttə, xeyli iş görülməlidir. Düşünürəm ki, C.Bayramov bu istiqamətdə işlər görür, addımlar atır" - deyə İ.Orucov qeyd etdi.

***İradə SARIYEVA***

# "Kontakt Home"da aparat qalmaqalı...

**Bu günlərdə "Kontakt Home"la bağlı növbəti şikayət Azad İstehlakçılar Birliyinə daxil olub. Birliyin sədri Eyyub Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Nəsimi rayonu, 20 Yanvar küçəsi, bina 31 ünvanında yaşayan İsgəndərova Gülər Vəli qızı ərizə ilə Birliyə müraciət edib:**

***Eyyub Hüseynov:** ”Vətəndaşın ”Kontakt Home”dan aldığı ”Claassic SegWay holder” aparatı istifadəyə yararsızdır”*

***”Kontakt Home” - Cəmilə Alnağalıyeva:** ”Müştəri ”Claassic SegWay holder” mexanizmini düzgün idarə etmədiyi üçün aparat sıradan çıxıb”*

"25.03.2019-cu ildə "Kontakt Home", Nəsimi rayonu, C.Məmmədquluzadə 120 A ünvanında yerləşən mağazasından kreditlə dəyəri 410 AZN olan "6.5" "Claassic SegWay holder" ("SW 30818) aparatı alıb. Amma onunla kredit müqaviləsi bağlanmayıb. Yalnız ödəniş cədvəli və zəmanət talonu verilib. İlkin olaraq 56 AZN ödəyib. Sonra aparatı evə aparıb. 28.03.2019-cu il tarixində aparatı qutusundan çıxarıb, övladına ad günü hədiyyəsi kimi təqdim edib. Aparatı çıxardarkən kitabçasında onun istifadə qaydası üçün Azərbaycan dilində heç bir şey yazılmadığını görüb. Əgər mal Azərbaycan Respublikasına gəlirsə, onun həm də Azərbaycan dilində istifadə qaydasının təlimatı olmalıdır. Aparatın evdə 1,5 saatdan sonra ortasında qırmızı işıq yanıb-sönməyə başlayıb. Vətəndaş aparatın enerji ehtiyatının bitdiyini düşünüb və onu elektrik mənbəyinə qoşub. Bir sözlə, aparat işləməyib. Mağazanın əlaqə nömrəsinə zəng edib və vətəndaşa bildirilib ki, onlarlıq heç nə yoxdur, servisə göndərsin. Vətəndaş nə qədər bildirsə ki, aparatı onlardan alıb, nəticəsi olmayıb. 29.03.2019-cu il tarixində aparatı aldığı ünvana geri aparıb. Xahiş edib ki, qüsurlu mal dəyişilsin. Amma tələbi yerinə yetirilməyib".

**E.Hüseynovun sözlərinə görə, şikayətçi xanım aldığı malı Yasamal rayonu, Şıxəli Qurbanov 19 ünvanında yerləşən "Link Servis"ə aparıb və yalnız servisin verdiyi rəy əsasında qərar qəbul edilməlidir:** "Beləliklə, 01.04.2019-cu il tarixində malı servisə təqdim etsə də, mal hələ də oradadır. 10 gün sonra isə alıcıya cavab gəlib ki, guya aparata su düşdüyü üçün platası yanıb. Şikayətçi xanım aparata su düşmədiyini, öz defekti olduğunu desə də, ona məhəl qoyulmayıb. Üstəlik, ondan 150 AZN təmir üçün pul istənilib. Bu tərəfdən də aylıq ödəniş tələb olunur. Malın 1.5 saat ərzində platası yanırsa, bu, müştəri tərəfindən edilən səbəb ola bilməz, hələ üstəlik bir neçə bəhanə də gətiriblər. Gah deyiblər aparatın içinə su düşüb, gah da deyirlər yamaya düşüb".






**Məsələ ilə bağlı "Kontakt Home" ilə əlaqə saxladıq.** "Kontakt Home" mağazalar şəbəkəsinin şikayət üzrə inzibatçısı, irad və təkliflər şöbəsinin nümayəndəsi Cəmilə Alnağalıyeva "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, "Claassic SegWay holder" ("SW 30818) aparatının qabaq təkərinin alt hissəsində əsas mexanizm olur. Ancaq G.İsgəndərovanın mağazadan alıb, sonra yararsızdır deyə geri qaytardığı mexanizm tamamilə sıradan çıxıb: "Həmin mexanizmin sıradan çıxmasının səbəbi istehlakçı ilə bağlıdır. Müştəri həmin mexanizmi düzgün idarə etmədiyi üçün aparat sıradan çıxıb.

Ola bilsin ki, müştəri aparatı daşlı yerdə sürüb və uşaq müxtəlif səbəbdən həmin mexanizmi zədələyib. Bu üzdən, aparatın düzəlməsi üçün 150 manat təmir xərci qeyd olunub. Aparatın təmir olunaraq müştəriyə təqdim olunması barədə dəfələrlə Gülər xanıma məlumat verilib. Ancaq Gülər xanım isə bizi şikayət etməklə təhdid edərək dəstəyi asıb".

*Günel CƏLİLOVA*

# Nazim Həsənov 69+ çəkidə kinqboksinq üzrə Azərbaycan çempionu oldu




**Dünən Sərhəd Qoşunlarının İdman sarayında kinqboksinq üzrə Azərbaycan çempionatının final yarışı keçirilib.**

14 yaşlı yeniyetmələr arasında 69+ çəki dərəcəsi üzrə Nazim Həsənov çəkidə özündən xeyli üstün olan rəqibinə qarşı inamla döyüşərək, ilk dəfə olaraq, Azərbaycan çempionu titulunu qazanıb.

Kinqboksinq Federasiyasının prezidenti, millət vəkili Adil Əliyev çempion kubokunu N.Həsənova təqdim edib.








# İlk üç ayda 2,1, ilin sonunadək 4 faiz inflyasiya - Elman Rüstəmovun proqnozunda şübhəli mətləb...

**2019-cu ilin yanvar-mart aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2018-ci ilin müvafiq dövrünə nisbətən 2,1 faiz, o cümlədən, ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 1,5 faiz, qeyri-ərzaq mallarının qiymətləri 1,2 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 3,6 faiz bahalaşıb.**



*"Ümumən, MB birrəqəmli inflyasiya səviyyəsinə nail ola bilərsə, nəticə etibarilə, bu onun üçün pozitiv hesab oluna bilər"*

## *Vüqar Bayramov: "İlin sonuna qədər inflyasiya səviyyəsini 4 faiz həddində saxlamaq mümkün olmayacaq"*

Bir sözlə, bu ilin yanvar-mart aylarında, yəni ilin birinci rübündə inflyasiyanın səviyyəsi 2,1 faiz təşkil edib.

2015-ci ildə baş verən devalvasiyadan sonra Azərbaycanda inflyasiya ikirəqəmli hədlə ölçülüb. Yalnız ötən il inflyasiya səviyyəsini birrəqəmli həddə saxlamaq mümkün oldu. Bu il hökumətin əsas məqsədlərindən biri inflyasiyanı birrəqəmli səviyyədə saxlamaqdan ibarət olacaq.

Bu arada, Mərkəzi Bankın sədri Elman Rüstəmov bildirib ki, ilin sonuna qədər illik inflyasiya 4 faiz təşkil edəcək: "İllik inflyasiya pullu xidmətlərin qiymətinin dinamikasından təsirlənib. Burada 12 ay ərzində 3,7 faiz səviyyəsində artım olub. Uyğun olaraq illik inflyasiyanın artımının təxminən 50 faizi bu amilin payına düşür. Ərzaq 2,3 faiz, qeyri-ərzaq qiymətlərinin isə 1,3 faiz artım dinamikası ümumi inflyasiya səviyyəsindən aşağıdır. Bu ilin sonunda illik inflyasiyanın səviyyəsinin 4 faiz təşkil edəcəyi gözlənir".

E.Rüstəmov onu da qeyd edib ki, 2019-cu ildə ortamüddətli dövrdə fiskal siyasətin sabitliyi, dövlətin fiskal xərclərinin dayanıqlığının təmin olunması inflyasiyanın aşağı olmasının və məzənnənin sabitliyinin başlıca amili kimi qalır.

Maraqlıdır, bu ilin birinci rübündə inflyasiyanın səviyyəsi 2,1 faiz olub, o zaman ilin sonuna qədər bunun 4 faiz olacağı ilə bağlı deyilənlər nə dərəcədə realdır? Nəzərə alsaq ki, bu il bir sıra sosial müavinətlər və digər ödənişlər artıb, o zaman ilin sonuna qədər inflyasiyanın deyilən həddə saxlanması mümkün olacaqmı?

**Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Vüqar Bayramov bunu istisna etdi. Onun sözlərinə görə, 2019-cu ilin sonuna qədər illik inflyasiyanın 4 faiz olacağı real görünmür:** "Dövriyyədə olan pul kütləsinin həcmi birbaşa inflyasiyanın səviyyəsinə təsir göstərir. Eyni zamanda, manatın mövcud məzənnəsi inflyasiyanın səviyyəsinə təsir göstərən faktorlardan biridir. Hökumətin əsas məqsədi ilin sonuna qədər inflyasiyanın birrəqəmli həddə saxlamağa nail olmaqdır. Ancaq bu il güman olunur ki, dövriyyəyə daxil olan vəsaitin həcmində artımlar olacaq. Xüsusən də sosial artımlarla bağlı olaraq güman olunur ki, dövriyyəyə daha çox vəsait daxil olacaq. Bütün bunlar da, nəticə etibarilə, istehlak bazarında tələbi artıracaq. Ona görə də ilin sonuna qədər inflyasiya səviyyəsini 4 faiz həddində saxlamaq mümkün olmayacaq. Yəni bu kifayət qədər çətin olacaq. Ümumən, MB birrəqəmli inflyasiya səviyyəsinə nail ola bilərsə, nəticə etibarilə, bu onun üçün pozitiv hesab oluna bilər. O baxımdan hesab edirəm ki, MB üçün indiki məqamda əsas məqsəd inflyasiya səviyyəsini birrəqəmli həddə saxlamaq olmalıdır.

Bu kontekstdən yanaşsaq, ilin sonuna qədər inflyasiya səviyyəsi birrəqəmli ola bilər, amma bunun 4 faiz olacağı real deyil. Manatın məzənnəsi sabit qalarsa, ilin sonuna qədər ölkədə inflyasiyanın səviyyəsi 7 faiz ətrafında olacaq".

***Vidadi ORDAHALLI***

# Dollar-manat kursunun kiçik tərəddüdlərlə enib-qalxmasının iqtisadi və qeyri-iqtisadi əsasları...

**Beynəlxalq valyuta birjalarında dolların aparıcı valyutalara nisbətdə qiymətində müəyyən bahalaşma var. Ancaq qəribədir ki, son günlər dünya birjalarında dolların kursunda müşahidə olunan müəyyən artım tendensiyası Azərbaycan banklarında da nəzərə çarpır.**



*"Burada hər hansı manipulyasiya elementləri hiss olunmur"*

## *Rəşad Həsənov: "Gün ərzində məzənnənin bir neçə dəfə dəyişməsi bankların valyuta balansında olan dəyişməyə uyğun verdikləri qərarla bağlıdır"*

Məsələ ondadır ki, gün ərzində bir neçə dəfə banklardakı məzənnə fərqinin dəyişdiyi müşahidə olunur. Bununla bağlı yayılan məlumatlara görə, cüzi də olsa məzənnədə dəyişmələr baş verir və bu əsasən artıma meyllidir.

O da məlumdur ki, Azərbaycanda dollar-manat münasibəti dünya bazarlarında neftin qiymətinin necə olmasına əsasən müəyyən edilir. Bu baxımdan son iki ildə neftin dünya bazar qiyməti stabil qalıb. Yəni Azərbaycan valyutasının dollara münasibətdə stabil dəyər nümayiş etdirməsi üçün neftin 50-60 dollar arasında olması kifayət edir. Nəzərə almaq lazımdır ki, xeyli müddətdir neftin 1 barrelinin qiyməti 60 dollardan yuxarı olub. Başqa bir tərəfdən, İrana tətbiq olunan sanksiyalarla əlaqədar neftin qiyməti 70 dolları keçib. Neftin qiyməti ilə əlaqədar olaraq ölkəyə valyuta axını manatın məzənnəsinin stabil qalması üçün olduqca əlverişlidir. Ölkədən çıxan valyuta ilə ölkəyə daxil olan valyuta nöqteyi-nəzərindən vəziyyət manatın xeyrinə dəyişməlidir. Çünki neftin qiymətinin baha olması səbəbindən ölkəyə daha çox valyuta daxil olur. Bu nöqteyi-nəzərdən məsələyə yanaşsaq, Azərbaycanda dolların məzənnəsi daha da aşağı düşməlidir. Yaxud da buna meylli olmalıdır. O zaman bəzi kommersiya banklarının dollar satışında niyə qiymətlər oynayır? Niyə qiymətlər cüzi də olsa qalxır?

**Məsələyə aydınlıq gətirən iqtisadçı-ekspert Rəşad Həsənov bunu bir sıra amillərlə əlaqələndirdi:** "Gün ərzində məzənnənin bir neçə dəfə dəyişməsi bankların valyuta balansında olan dəyişməyə uyğun verdikləri qərarla bağlıdır. Məsələ ondadır ki, Mərkəzi Bankın təşkil etdiyi hərraclar həftədə 2 dəfə keçirilir. Banklar özlərinin kassalarında olan valyutanın nisbətinə uyğun olaraq gün ərzində müxtəlif strategiyalar müəyyənləşdirirlər. Əgər müəyyən dövr üçün onların əlində manat çoxdursa, bu zaman valyuta yığımına üstünlük vermək üçün alış məzənnəsini nisbətən artırırlar. Əks halda, məzənnəni aşağı salırlar. Bu əsasən ABŞ dollarına aiddir. Digər valyutalara gəldikdə isə, birjalar və dünya bazarları izlənir. Həmin valyutaların məzənnəsi dollara görə müəyyən edilir. Eyni zamanda, dünya bazarında baş verən dəyişikliyə uyğun olaraq banklar məzənnələrini ani olaraq dəyişə də bilərlər. Deməyim odur ki, burada hər hansı manipulyasiya elementləri hiss olunmur. Başqa bir tərəfdən, "Formula-1" yarışları ilə əlaqədar Azərbaycana çoxsaylı turist gəldi. Bu o deməkdir ki, onlar özləri ilə dollar gətirir və ölkədə realizə edirlər.

Bu, prinsipcə, manatın məzənnəsini daha da möhkəmləndirməlidir. Ancaq bu gün bazarda başqa faktorlar da var. O faktorlardan biri ondan ibarətdir ki, faktiki diqtə məzənnəsi bankları müəyyən dövrlərdə müxtəlif istiqamətlərdə qəti qərar verməyə məcbur edir.

**Bütövlükdə, valyuta bazarında vəziyyət sabitdir. Yəni məzənnə diqtə olunur və bu prosesin yaxın gələcəkdə dəyişəcəyi gözlənilmir".**

***Vidadi ORDAHALLI***

**Bəzən o məhsullar daha çox reklam olunur ki, onların insanlar tərəfindən kütləvi şəkildə istehlak edilməsində maraqlı olan qüvvələr var. Əlbəttə, bu gün ən çox reklam olunan məhsullar sırasında arıqladıcı çaylar ilk yerlərdən birini tutur. Çox təəssüf ki, bu məhsulların reklam edilməsində şou-biznes nümayəndələri, müəyyən tanınmış müğənnilər xüsusi canfəşanlıq göstərirlər.**

Hazırda sosial şəbəkələrdə və müxtəlif onlayn dərman satışı ilə məşğul olan internet portallarında müğənnilərin birbaşa iştirakı ilə müxtəlif adda, qablaşdırmada arıqladıcı çaylar reklam edilir. Bu çaylardan davamlı istifadə edən insanların böyük əksəriyyəti isə əsasən onları qəbul etdikdən sonra həm bioloji, həm də psixoloji problemlər yaşadıqlarını deyirlər.

Son zamanlar sosial şəbəkələrdə geniş şəkildə reklam edilən "Meri" adlı arıqlatma çayından istifadə edənlər də ciddi sağlıq problemləri yaşayırlar. Bu günlərdə oxucularımızdan biri bizimlə əlaqə saxalayaraq "Meri" çayının onun orqanizmində yaratdığı fəsadlardan şikayətləndi. Oxucumuz bildirdi ki, reklama uyaraq, sözügedən çaydan istifadə etdikdən sonra onda dəhşətli baş ağrıları, baş gicəllənmələr, kəskin halsızlıq, davamlı iştahsızlıq və s. hallar yaranıb.

O qeyd edir ki, qiyməti 50-60 manat olan "Meri" çayını 15 gün müddətində gündə iki dəfə içməklə artıq çəkidən xilas olacağını zənn edirmiş, lakin öz orqanizmində fəsadların yarandığını görüb həkimlərə müraciət edib. Həkimlər ona bildiriblər ki, istifadə edən insanlarda ciddi asılılıq, eyini zamanda, kəskin fəsadlar yaradan "Meri" çayı ilə bağlı həkimlərə müraciətlər artıb. Həkimlər "Meri" çayı istifadəçisinə onu da deyiblər ki, sən yaxşı qurtarmısan, bu çayın fəsadlarını tez hiss edib həkimə müraciət etmisən, gec olsaydı, daha ağır problemlərlə üzləşərdin.

Qeyd edilənə görə, sözügedən çay həm toz, həm də kiçik bağlama şəklində satışa çıxarılır. Oxucumuzun sözlərinə görə, "Meri" çayı şou-biznesçilər, müğənnilər tərəfindən reklam edildiyi üçün, o bu vasitənin etibarlılığına və müsbət təsir gücünə inanıb. Oxucumuz insanları "Meri" çayının reklamına aldanmamağa çağırır. O hesab edir ki, arıqlamaq istəyənlər qətiyyən bu çayın şirnikləndirici reklamına aldanmasınlar.

"Meri" çayının tərkibində hansı maddələr ola bilər ki, istehlakçıda halsızlıq, başgicəllənmə və digər fəsadlar, eləcə də asılılıq yaradır?

**Tibb elmələri doktoru, professor Adil Qeybulla "Bakı-Xəbər"ə bildirdi ki, bütün arıqladıcı çayların və dərman vasitələrinin tərkibinə insan orqanizmi üçün zərərli maddələr qatılır.** A.Qeybullanın sözlərinə görə, arıqladıcı təsirə malik olduğu deyilən çayların böyük əksəriyyətinin qutusunun üzərində onun tam tərkibi haqqında məlumat qeyd edilmir. "Arıqladıcı çayların orqanizmə bir sıra mənfi təsirləri var. Onlar iştahsızlıq yaradır. Eyni zamanda, bədəndən həddən artıq maye ifraz olunur. Bu vasitələr tərkibindəki maddələrlə çəkinin itirilməsinə səbəb olur. Söhbət ondan gedir ki, bu cür vasitələri, çayları qəbul edən, uzun müddət aclıqda olan şəxslər əziyyət çəkirlər. Bədən belədir ki, doymamış yağ turşuları, əvəz olunmayan amin turşuları mütləq orqanizmə xaricdən qəbul olunmalıdır. Orqanizm uzun müddət ac qalırsa, onda beyində mürəkkəb molekulyar proseslərin gedişi pozulur. Hətta insanda psixi dəyişikliklər kimi hallar baş verə bilər.

Ona görə də arıqlamaq istəyən insanlar o çaylardan içməkdənsə, peşəkar dietoloqlara müraciət etsinlər. Sağlam arıqlamaq lazımdır, onun da yolu peşəkar dietoloqlardan keçir. Əhaliyə də tövsiyəm odur ki, bu cür çayları qəbul etməkdən imtina etsin.

Tutalım, biri həmin çayı alırsa və bu ona müsbət təsir göstərirsə, başqaları da ondan alıb istifadə edirlər, nəticədə də sözügedən problemlər yaşanır. Özünümüalicə metodlarının çox ciddi fəsadları olur və biz bunu bir neçə epizodda görürük. Hesab edirəm ki, bu yoldan çəkinmək lazımdır".




# Arıqladıcı "Meri" çayının fəsadları - ölümdən qayıtdığını iddia edən xəstənin dedikləri...

*"... ola bilsin ki, onun tərkibində beyinə kütləşdirici təsir göstərən, orqanizmə zərər vuran maddələr var"*



***Adil Qeybulla:** "Konkret olaraq "Meri" çayına gəlincə, onun tərkibi haqqında birmənalı fikir söyləmək çətindir"*

***Leyla Bayramova:** "Son zamanlar bu tip reklamlar sosial şəbəkələrdə geniş yayılıb"*

A.Qeybulla qeyd etdi ki, Azərbaycandan fərqli olaraq, dünyanın heç bir yerində xəstə həkim göstərişi olmadan gedib hansısa bir aptekdən dərman, çay almır, heç onu satmırlar da. O qeyd etdi ki, apteklər market olmadığı üçün, burada satılan bütün vasitələr resept əsasında verilməlidir. "Konkret olaraq "Meri" çayına gəlincə, onun tərkibi haqqında birmənalı fikir söyləmək çətindir. Çünki onun tərkibi haqqında məlumat yoxdur. Bu çay istifadəçilərin orqanizmində belə ciddi fəsadlar yaradırsa, ola bilsin ki, onun tərkibində beyinə kütləşdirici təsir göstərən, orqanizmə zərər vuran maddələr var. Yəni bu çayın mənfi təsir imkanları müxtəlifdir. Bu çay da, başqa çaylar da müxtəlif vasitələrdən hazırlanır, onların tərkibinə insan orqanizminə zərərli maddələr vurulur. Elə çaylar var ki, onlar kimyəvi vasitələrdən hazırlanır. Çox təəssüflər olsun ki, arıqladıcı çayların və digər vasitələrin tərkibi üzərində göstərilmir. Çünki tərkibi müəyyən olunmayan vasitələrə izah vermək çətin olur" - deyə A.Qeybulla bildirdi. O hesab edir ki, bütün arıqladıcı vasitələrin, eləcə də çayların tərkibi ciddi şəkildə yoxlanılmalıdır.

**Həkim-terapevt Leyla Bayramova isə hesab edir ki, bu çaylar xüsusi şəkildə hazırlanır və onun məqsədi insan orqanizmini sıradan çıxarmaqdır.** O qeyd etdi ki, son zamanlar bizim cəmiyyətdə arıqlamaq dəbə minib və insanlar bunun yolunu müxtəlif arıqladıcı çaylarda görürlər. "Bir çoxları, xüsusilə də qadınlar tez bir zamanda artıq çəkidən azad olmaq üçün müxtəlif çaylardan istifadə edirlər. Bir mütəxəssis kimi demək istəyirəm ki, bu çayların mənfi tərəfləri nəzərə alınmalıdır. Arıqlama çayı içən insanların böyük əksəriyyəti həkimə baş ağrıları, baş gicəllənmə, həddindən artıq maye ifraz etmə, böyük və kiçik bayıra tez-tez getdikləri ilə bağlı şikayətlər edirlər. Onlara izah edirik ki, sürətli arıqlama insanın həyatı bahasına başa gələ bilər. Elə xəstələr var ki, deyir 1 ayda 10 kiloqram, 40 gündə 17-20 kiloqram arıqlamışam. Bu da bədənin kifayət qədər zəifləməsi deməkdir. Çox təəssüf edirəm ki, tərkibi gizlədilən bir sıra arıqlatma çayları insan orqanizmini daxildən sökür. "Meri" çayının reklamına sosial şəbəkələrdə tez-tez rast gəlirik. Onu əsasən müğənnilər reklam edirlər. Müğənnilər bu çaydan istifadə etmirlər, sadəcə pul qarşılığında onun reklamında iştirak edirlər.

**Bilirsiniz ki, son zamanlar bu tip reklamlar sosial şəbəkələrdə geniş yayılıb və bu çaydan zərər çəkənlər çoxdur. Bu çayın tərkibi haqqında geniş məlumat verilmir. Tez bir zamanda arıqlatmaq təsirinə malik olduğu reklam edilən bu çaydan asılı olanlar var. Bu tip çaylardan istifadə düzgün deyil. Sağlam çəki atmaq üçün müyyən müddət lazımdır. Birdən-birə verilən kilolar insan orqanizmi üçün böyük fəsadlara gətirib çıxara bilər. Hətta insan həyatına belə son qoya bilər" - deyə həkim-terapevt bildirdi.**

***İradə SARIYEVA***

# "Zərifə Budaqovanın 90 illik yubileyinin keçirilməsi üçün Milli Elmlər Akademiyasının Rəyasət Heyəti tərəfindən xüsusi qərar qəbul edilib"

***İsmayıl Məmmədov:** "Professor Zərifə Budaqova böyük bir alim olmaqla yanaşı, həm də misilsiz bir pedaqoq idi"*

**90 il bundan əvvəl bir bahar günündə qayım-qədim yurdlarımızdan olan İrəvanda kəndli ailəsində doğulmuşdu. Sadə, lakin işıqlı bir ocaqda dünyaya gələn Zərifə İsmayıl qızı Budaqova (Əliyeva) sonradan Azərbaycan dilçilik elminin sütunlarından birinə çevrildi.**

Zərifə xanım öz elmi fəaliyyəti dövründə bir sıra ilklərə imza atıb. Azərbaycan dilçilik elmində ilk qadın alim kimi elmlər doktoru elmi dərəcəsini alıb, 1968-ci ildə isə ona "Türk dilləri" ixtisası üzrə professor elmi adı verilib. Zərifə xanım professor elmi adına layiq görüləndə cəmi 34 yaşı vardı. Onun dilçilik elminə, xüsusən də türkologiyaya verdiyi elmi töhfələr əvəzsizdir.



Z.Budaqovanı xarakterizə edən tələbələri, alim dostları bidlirirlər ki, o, Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda həm şöbə müdiri, həm də direktor kimi çalışdığı dövrdə özünü elm üçün ən gərəkli, dərin savadlı, elmi potensiallı, geniş erudisiyalı alimlərdən biri olaraq göstərə bilib. Onu da vurğulayaq ki, 1980-ci ildə Azərbaycan SSR EA-nın müxbir üzvü seçilməsi onun dilçilik sahəsindəki misilsiz xidmətlərinə verilən yüksək qiymətdir.

Z.Budaqova Dilçilik İnstitutunun ilk qadın direktoru olaraq da idarəçilik sahəsində yeni bir cığır açıb. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi Zərifə Budaqova cəmi 60 il yaşayıb. Bu il onun vəfatının 30, anadan olmasının isə 90 illiyidir.

Z.Budaqova həm bir alim, həm də bir insan kimi tələbələrinin, alim dostlarının , yaxınlarının yaddaşında yaşayır.

AMEA-nın Dilçilik İnstitutunun şöbə müdiri, professor Sayalı Sadıqova "Bakı-Xəbər"ə bildirdi ki, Z.Budaqova onun yaddaşında dərin izlər buraxan görkəmli elm xadimi, qiymətli şəxsiyyət olub. "Elə bir gün yoxdur ki, Zərifə xanımı xatırlamayaq. O çox qayğıkeş, səmimi, sadə, humanist bir şəxsiyyət kimi yaddaşlarda qalıb. Zərifə xanım gənc alimlərə, elmi işçilərə hədsiz dərəcədə qayğıkeşliklə yanaşırdı. Dilçilik sahəsində gənc alimlərin yetişməsi, onların öz yollarını müəyyən etməsi üçün mühüm işlər görürdü. Zərifə xanım heç zaman ona müraciət edən insanı köməksiz buraxmırdı, hər kəsə dəstək göstərirdi. Dilçilik elminin inkişafında onun rolu əvəzsizdir".

Z.Budaqovanın həyatdan vaxtsız köçdüyünü təəssüflə qeyd edən S.Sadıqovanın sözlərinə görə, onun bir alim kimi başladığı işlərin çoxu yarımçıq qalıb. Onun vəfatının dilçilik elmində boşluq yaratdığını deyən S.Sadıqova hesab edir ki, Z.Budaqovanın elm sahəsinə verəcəyi töhfələr çox idi. "Onun vəfatı dilçilik elmində boşluq yaratdı. Zərifə xanım cəmi ilyarım Dilçilik İnstitutuna rəhbərlik etdi. Bu dövr ərzində üççildlik "Azərbaycan dilinin qrammatikası" onun rəhbərliyi altında nəşr edildi. Bundan başqa, o, "Azərbaycan dili xaricdə" dərsliyinin müəllifidir. Onun Azərbaycan dilinin aktual problemlərinin işlənməsi ilə bağlı çox mühüm arzuları vardı. Azərbaycan dilinin dünya dilləri səviyyəsində inkişafı da onu ciddi düşündürürdü. Bundan əlavə, onun həyata keçməyən arzularından biri Azərbaycan dilinin ortaq türk dilləri arasında ünsiyyət vasitəsi kimi işlədilməsi ilə bağlı idi. Onun yaradıcılığında bununla bağlı problem qoyulub, aktuallaşdırılıb, lakin həyata keçməyib. Hazırda da bu məsələ dilçiliyimizdə ən aktual problemlərdən biridir. Zərifə xanımın ömrünün qırılması bu işlərin gerçəkləşməsinə mane oldu. Yaşasaydı, mütləq bu istiqamətdə olan işlərini reallaşdıracaqdı. Azərbaycan dilinin ortaq türk dilləri arasında ünsiyyət vasitəsi kimi seçilməsi ideyasının əsası Zərifə xanım tərəfindən qoyulub, ancaq reallaşmayıb".

Görkəmli elm xadimi Z.Budaqovanın 90 illik yubileyinin qeyd edilməsi məsələsinə gəlincə, S.Sadıqova bildirdi ki, mərhum alimin 90 illik yubileyinə hazırlıq işləri başlanıb. "Zərifə Budaqovanın 90 illik yubileyinin keçirilməsi üçün Milli Elmlər Akademiyasının Rəyasət Heyəti tərəfindən xüsusi qərar qəbul edilib. Çünki o, filologiya sahəsində ilk qadın alimdir, SSRİ dövründə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilib. O həm də filologiya sahəsində ilk qadın elmlər doktoru, professordur. Zərifə xanımın 90 illik yubileyinin keçirilməsi üçün işlər görülür. Biz dilçilər hər zaman ustad alimin xatirəsini əziz tutur və ruhunu hörmətlə xatırlayırıq" - deyə S.Sadıqova bildirdi.

Dilçilik İnstitutunun şöbə müdiri, professor İsmayıl Məmmədov da Z.Budaqovanın işıqlı xatirəsini hər zaman andıqlarını bildirdi. O bizimlə söhbətində qeyd etdi ki, Dilçilik İnstitutunda Zərifə xanım onun şöbə müdiri olub. Z.Budaqovanı həlim, sadə, humanist bir insan, görkəmli alim kimi xarakterizə edən İ.Məmmədovun sözlərinə görə, onun dilçilik elminin inkişafında və gənc dilçilərin yetişməsində mühüm əməyi olub. "Z.Budaqovanın dəyərli tədqiqatları heç də təsadüfi deyil ki, Azərbaycan və türkoloji dilçiliyin tanınmış nümayəndələri tərəfindən öz yüksək qiymətini alıb. Məşhur türkoloqlardan professor Əthəm Tenişev, Məhərrəm Ergin, Sadəttin Buluc və Zeynəb Qorxmazın onun haqqında söylədikləri dəyərli fikirlərin ümumi məzmunu belədir ki, professor Zərifə Budaqova həmişə dilçilikdə öyrənilməsinə zərurət duyulan aktual tədqiqatlar aparıb, öz obyektiv və qəbul olunan sözlərini deyib.

Professor Z.Budaqova böyük bir alim olmaqla yanaşı, həm də misilsiz bir pedaqoq, tələbələrinin ən hörmətli, sevimli, bilikli, qayğıkeş müəllimi idi. Onda professional müəllimə xas olan bütün keyfiyyətlər - özündə olan elmi bilikləri, xəzinəni tələbələrinə, aspirantlarına öyrətmək, mənimsətmək bacarığı, qabiliyyəti, böyük və zəngin həyat təcrübəsi, əhatəli dünyagörüşü, nəzakətli davranışı, aydın və səlis nitqi var idi. Z.Budaqova Azərbaycan Pedaqoji Universitetində, Azərbaycan Pedaqoji Dillər İnstitutunda (indiki Azərbaycan Dillər Universiteti) dolğun və məzmunlu, maraqlı mühazirələri ilə tələbələrinin sevimli müəllimi olub.

Professor Z.Budaqova AMEA Nəsimi adına Dilçilik İnstitutunda şöbə müdiri, direktor müavini və direktor kimi fəaliyyət göstərib. O həm də bacarıqlı elm təşkilatçısı və müdrik rəhbər olub. Alim ömrünün sonuna qədər - otuz üç il (1955-ci ildən) Müasir Azərbaycan dili şöbəsinə rəhbərlik edib, özünün müəllifliyi və redaktorluğu ilə 3 cildlik "Müasir Azərbaycan dili" adlı kollektiv monoqrafiya nəşr etdirib. Professor Z.Budaqova yalnız Azərbaycanda deyil, keçmiş Sovetlər Birliyi məkanında, habelə dünya miqyasında da tanınan, elmi xidmətləri yüksək qiymətləndirilən dilçi alim olub. Azərbaycan elmi ictimaiyyətində görkəmli alim barəsində formalaşmış qənaət və fikirlər kütləvi informasiya vasitələrində, televiziya və radio vasitəsilə oxuculara və dinləyicilərə çatdırılıb. Zərifə xanımın alimləri konkret bir problemin həlli ətrafında toplamaqda da güclü və təsəvvürəgəlməz istedadı var idi. Əgər belə olmasaydı, Azərbaycan Elmlər Akademiyasına başucalığı gətirmiş Azərbaycan dilinin qrammatikasının üçcildliyi işıq üzü görə bilməzdi..." - deyə İ.Məmmədov qeyd etdi.

***İradə SARIYEVA***

# Təhsil Nazirliyi orta məktəblərdə ayrıca dini fənnin keçirilməsinin gündəmdə olmadığını bildirdi




**Gələn tədris ilindən Azərbaycanda 4-8-ci sinif şagirdlərinin dini biliklərin daha geniş şəkildə yer aldığı yeni "Həyat bilgisi" dərsliklərindən istifadə etməsi nəzərdə tutulur.**

Bunu "Trend"ə Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov deyib.

Onun sözlərinə görə, 4-8-ci sinif şagirdləri üçün yalnız "Həyat bilgisi"nin deyil, digər fənlər üzrə də dərsliklərin təkmilləşdirilmiş nəşri hazırlanır. Hazırda həmin dərsliklər ictimai müzakirədədir.

C.Valehov əlavə edib ki, "Həyat bilgisi" dərsliyində dini biliklərlə bağlı məlumatlar olsa da, təkmilləşdirilmiş variantda bu məlumatlar daha da genişləndirilib.

Nazirlik rəsmisi bildirib ki, təkmilləşdirilmiş yeni dərsliklərin sentyabrdan şagirdlərin istifadəsinə verilməsi nəzərdə tutulur.

O, orta məktəblərdə ayrıca dini fənnin keçirilməsinin gündəmdə olmadığını da nəzərə çatdırıb.

Ali təhsil müəssisələrinə gəldikdə, C.Valehov deyib ki, təhsil naziri Ceyhun Bayramovun "Bakalavriat səviyyəsi üzrə ixtisasların təhsil proqramlarına dəyişiklik barədə" əmrinə əsasən, 2019-2020-ci tədris ilindən etibarən bakalavriat səviyyəsi üzrə "Multikulturalizmə giriş" fənninin proqramına "Dinlər tarixi" adlı mövzuların daxil edilməsi təmin ediləcək.

"Dinşünaslıq" və "İslamşünaslıq" ixtisaslarının yer aldığı ali təhsil müəssisələrində isə "Dinlər tarixi" fənni ayrıca fənn kimi tədris olunur.

**Zaqatala rayonu Sumayılı kənd sakini Abdullayeva Nəzakət Abdulla qızı "Bakı-Xəbər"ə müraciət edərək, Abşeron rayonunun Məhəmmədi qəsəbəsində yaşayan, 1988-ci il təvəllüdlü Əliyev Süleyman Mübariz oğlu tərəfindən aldadıldığını bildirib. Şikayətçinin sözlərinə görə, həmin şəxs onunla yanaşı, bir neçə şəxsə də Abşeron rayonunun Məhəmmədi kəndindən torpaq satmaq adı ilə fırıldaq gəlib:**



# Zaqatala sakininin Abşeronun Məhəmmədi kəndində müşkülə dönmüş torpaq problemi - sənəd var, torpağın yeri bilinmir...

"2013-cü ildə bacımgil həmin yerdən torpaq alırdılar. Onda dedim ki, mən də istəyirəm. Necə oldusa, bizə torpaq satan kimi Süleyman adlı oğlanı təqdim etdilər. Mən də çıxartdım ona pul verdim. Sonra bu adam oldu atlı, mən piyada. Onu tapa bilmədim. Bizə torpağı da göstərdi, hətta sənəd də verdi. Sonra biz araşdırdıq ki, onun verdiyi sənəddə göstərilən yer ümumiyyətlə yoxdur. Ancaq bilirəm ki, həmin adamın Məhəmmədi kəndində hektarlarla torpağı var, istəsə, mənim 3 sot torpağımı verə bilər. Pulu məndən şəxsən Süleymanın özü alıb. Sonra bütün telefon nömrələrini dəyişdi. Sonuncu dəfə onunla 2 ay əvvəl danışmışam. Elə deyir ki, pulunu qaytaracam, amma etmir. Ona 4500 manat bir dəfə vermişəm, sonra da 250 manat sənəd hazırlamaq üçün verdim. Mən düzgün adamam, nə var onu deyirəm. O hətta puldan mənə qaytarıb da. Keçən il fevarl ayında gətirib 1500 manat, Ramazan ayında isə 100 manat verib. Ümumən, mənə 1600 manat pul qaytarıb. Mən ondan yalnız öz verdiyim pulu istəyirəm. Nə qədər yalvardım ki, heç olmasa 200 manat verməklə qaytar, bunu da etmədi. Mən tək deyiləm, bunun əməlindən çox adam zərər çəkib. Sadəcə, çox adam dalınca getmək istəmir, beziblər. Mənim hüquq-mühafizə orqanlarına şikayət etməməyim isə pulumu alacağıma ümidli olmamağımla bağlı olub. İndi onun verdiyi sənədlə biz torpağı tapa bilmirik. Sonda bizə qarşı fırıldağı edən adam mənə dedi ki, "gedin pulunuzu mənim atamdan alın, mənlik heç nə yoxdur". Maraqlandıq, dedilər ki, atası rəhmətə gedib. İndi də bu fırıldağa əl atıb. Amma hamı deyir ki, onların Məhəmmədi kəndində böyük torpaq sahələri var. Bələdiyyə, icra qurumlarının hamısı tanıyır bunları. Sizdən çox xahiş edirəm, bu məsələni ictimailəşdirin ki, bəlkə gətirib mənim pulumu qaytarsın. Bilirəm ki, imkanı da var. Sadəcə, məni kimsəsiz gördüyü üçün bu fırıldağı edir".

**Biz Abşeron rayonu Məhəmmədi kənd bələdiyyəsilə əlaqə saxladıq. Bizimlə danışan ümumi şöbənin müdiri Vüsalə Rəhimova qəzetimizə bildirdi ki, bu adda adam tanımır və onlara belə fırıldaqla bağlı hər hansı bir məlumat daxil olmayıb. Bələdiyyə sözçüsü bizə dedi ki, məsələni araşdırıb günün sonunda bizə məlumat verəcəklər.**

Torpaq satmaqda adı çəkilən Əliyev Süleyman Mübariz oğlu ilə əlaqə saxladıq. İlk zəngimizdə o, sualı eşidəndən sonra bizə dedi ki, evdədir, danışa bilmir, özü bizimlə uyğun vaxtda əlaqə saxlayacaq. Sonra bir neçə dəfə zəng etməyimizə baxmayaraq, telefonu götürmədi. Nəhayət, iş gününün sonunda onunla əlaqə qura bildik. Sözügedən şəxs bizi hədələməyə başladı: "Siz kimsiniz ki, mənə dəqiqədə bir zəng edirsiniz? Demişdim zəng edəcəm, deməli gözləməlisiniz. Ürəyim nə vaxt istəyir onda da yığacaydım... Sən mənim fikrimi öyrənə bilməzsən. Harda olsan səni tapıb görüşəcəm. Görərsən mən kiməm".

Suallardan yayınmaq yolunu bizi hədələməkdə görən bu şəxs telefonu qapadan kimi, Məhəmmədi bələdiyyəsindən bizə zəng gəldi. Əvvəl danışdığımız Vüsalə xanım bizə bildirdi ki, maraqlanıblar, belə adam var: "Amma bu uşaqdır, onun nə günahı var ki? Hamısını atası edib, o da rəhmətə gedib. Onluq bir şey yoxdur. Siz həmin şikayətçilərə deyin bizə yaxınlaşsınlar. Görək nə məsələdir".

Əslində, kənd bələdiyyəsinin bu davranışı müəyyən şübhələr üçün əsas yaradır. Çünki bilirik ki, Bakıətrafı qəsəbələrdə kimsə özbaşına torpaq sata bilməz. Əksər hallarda bu cür əməliyyatlar bələdiyyələrlə işbirliyində olan şəxslər tərəfindən həyata keçirilir.

**Təəssüf ki, biz bələdiyyənin sədri Xəyaləddin Məmmədovla əlaqə yarada bilmədik. Ancaq hesab edirik ki, burada cinayət tərkibli əməl var. Sadəcə, hüquqlarını bilməyən insanların savadsızlığından istifadə edərək, ortada külli miqdarda pullar yeyilib. Hesab edirik ki, bu material hüquq-mühafizə orqanları üçün külli miqdarda törədilən dələduzluq əməlini araşdırmaq üçün yaxşı əsas ola bilər...**

*Məhəmmədəli QƏRİBLİ*

**Oyuncaq uşaqların gündəlik həyatının ayrılmaz parçasıdır. Uşaqların çoxu öz vaxtını sevimli oyuncaqları ilə keçirir. Körpələrin xoşbəxt anı isə valideynlərinin onlara sevdiyi oyuncaqları bağışladıqları andır.**



*"Belə oyuncaqlar çaşbaşlıq yaratmaqla yanaşı, uşağın gələcəyi üçün ciddi cinsəl problemlər yarada bilər"*

# Bakı mağazalarında əcaib kukla - baş qız, bədən oğlan...

## *Aynur Musayeva: "Belə bir kuklanın istehsalı onlarda böyük travmalara yol aça bilər"*

Məlumdur ki, qız uşaqları daha çox gəlincik, oğlanlar isə maşın və ya hərbi təyinatlı oyuncaqlarla oynamağa üstünlük verirlər. Bu gün satışda müxtəlif formada oyuncaqlar satılır. Müxtəlif ölkələrin istehsalı olan oyuncaqlar satışda var.

Qeyd etdiyimiz kimi, qız uşaqları daha çox gəlinciklə oynamağa üstünlük verirlər. Satışda müxtəlif ölçüdə, formada gəlinciklər satılır.

Bu günlərdə sosial şəbəkələrdə qardaşın balaca bacısına aldığı kukla müzakirə mövzusuna çevrilib. Qardaş sevinə-sevinə həmin gəlinciyi bacısına təqdim edib. Daha sonra kuklanı görən ailə dəhşətə gəlib. Belə ki, evdə kuklanın paltarını təsadüfən çıxaranda görüblər ki, oyuncağın başı qız başı, bədəni isə oğlan bədəni formasındadır. Dükan bunun istehsal səhvi olduğunu bildirir.

Ancaq psixoloqlar isə hesab edirlər ki, istehsalçılar qəsdən belə məhsullar istehsal edirlər ki, uşaqların cinsi dərrakəsində pozuntular yaransın.

**Uşaq psixoloqu Aynur Musayeva "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, uşaqlar ətraf aləmi ilk olaraq oyuncaqlar üzərindən kəşf edirlər:** "Belə bir kuklanı istehsalı onlarda böyük travmalara yol aça bilər. Nəzərə almaq lazımdır ki, gəlinciklər adətən 3 yaşdan böyük uşaqlara alınır. Bu həmin yaşdır ki, uşaqlarda öz cinslərini müəyyən edəcək təsəvvür artıq formalaşıb. Lakin belə oyuncaqlar çaşbaşlıq yaratmaqla yanaşı, uşağın gələcəyi üçün ciddi cinsəl problemlər yarada bilər".

Həmsöhbətimiz onu da vurğuladı ki, bir zamanlar xarici alimlər Barbi gəlinciklərinin uşaq psixologiyasına mənfi təsir etdiyini bildirirdilər: "Araşdırmalar zamanı müəyyən olundu ki, doğrudan da Barbi gəlincikləri uşaq psixologiyasına mənfi təsir göstərir. Barbi və bunun kimi gəlinciklər uşağın inkişafı və sağlamlığı üçün ziyanlıdır. Barbi gəlincikləri qız uşaqlarında "yalnız arıq insan gözəl ola bilər" kimi sağlam olmayan stereotiplər yaradır. Bu isə uşağın sağlamlığı və gələcəyi üçün ziyanlıdır. Bəzən qızlar "Barbi kimi" olmaq üçün arıqlamağa çalışır, yeməkdən imtina edirlər. Hətta onlarda anoreksiya inkişaf edir.

Əslində isə Barbi gəlinciklərinin quruluşunun insanın bədən və üz quruluşundan uzaq olduğu bildirilir".

*Günel CƏLİLOVA*

№ 76 (3974) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

30 APREL 2019-cu il

www.baki-xeber.com




**Qoç** - Hisslər və hissiyat günüdür. İntuisiyanızı işə salın, yaşamınızdakı qəfil dəyişiklikləri anlamağa çalışın. Bu yeniliklərin perspektivdə işlərə təsir miqyasını dəyərləndirməyə cəhd göstərin.


**Buğa** - Nəticənin bütünlüklə sizdən asılı olduğu gündür. Cari işlərlə məşğul olun, böyük planlar qurmayın. Rutin proseslər sizi usandırsa belə, kəmhövsələlik etməyin. Tənbəlliyə və ətalətə, süstlüyə və apatiyaya qapılmayın.


**Əkizlər** - Perspektivləri müəyyənləşdirin, addımlarınızı tərəfdaş və ya şəriklə razılaşdırın. İmkanlar genişlənir. Lakin indi gördüyünüz və ya sizə təklif olunan işi bəyənməsəniz də, daha çox xaosun yaranmasının səbəbkarı olmayın.


**Xərçəng** - Günün ilk yarısında təcili işləri müəyyənləşdirin, ilk növbədə onlarla məşğul olun. Mühüm nüansların diqqətdən yayınmasına imkan verməyin. Təmkinli, soyuqqanlı olun, emosiyalara qapılmayın.


**Şir** - Əla formadasınız və hadisələrin ritmindən, intensivlik və sayından bəhrələnə bilərsiniz. Hər şey sürətlə dəyişir, yaxın ətrafınızdakı insanlar təmaslara hazırdır. Emosiya və dəyərləndirmələrinizdə sayıq olun.


**Qız** - Gələcək günlərin bünövrəsinin qoyulduğu vaxtdır. Yeni işlərə mənəvi və fiziki baxımdan hazırlaşın. Sizdə razılıq hissi yaradan işlərdə çalışın, amma tapşırıq və göstərişləri də unutmayın.


**Tərəzi** - Çətin gündür. Gözləntiləriniz miqyaslı olmasın. Təşəbbüs və ideyanız tərəfdaş, iş yoldaşı və ya şərikiniz tərəfindən qəbul olunmur. İstənilən işdə yalnız öz qüvvənizə və imkanlarınıza bel bağlayın.


**Əqrəb** - Başqalarının səhvlərini yaxşı görürsünüz, amma öz yanlışlıqlarınızı da sezməyə, anlamağa çalışın. Sizinlə yeni ritmdə çalışmaq istəməyən insana qarşı iddialarla çıxış etməyin.


**Oxatan** - Hadisələrin ildırım sürətilə yaşanacağı gündür. Baş verənləri anlayırsınız, amma bir sıra məqamlar sizi gərginlikdə saxlayır. Hətta, yeni mərhələyə hesablanmış planlar belə, çətinliklərlə qarşılaşa bilər.


**Oğlaq** - Yaxın bildiyiniz insanlar üçün gördüyünüz işlər uğurla başa çatacaq. Xüsusi diqqət və məsuliyyət tələb edən sahələrdə sayıq olun, səhvlərə yol verməməyə çalışın. Sözləriniz və işləriniz estetik komponentli olsun.


**Dolça** - Asan, kommunikasiyalar yaratmağın əlverişli olduğu bir gündür. Yaxın ətrafınızdakı insanlarla ünsiyyət qurmaq çətin olmayacaq. Lakin həmsöhbətinizin emosional durumunun incəliklərinə və təfərrüatlarına fikir verin.


**Balıqlar** - Maliyyə məsələlərindəki anlaşılmazlıq və qeyri-müəyyənlik indi sizi ciddi narahat edir. Şəxsi məsələlərdə soyuq məntiqli bu günü unudun, ürəyinizin hökmünə qulaq asın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

# "Azercell" "İKT-də qızlar" günü münasibətilə keçirilən tədbirə dəstək oldu



**Beynəlxalq Telekommunikasiya İttifaqının 2010-cu ildə qəbul etdiyi qətnaməyə əsasən, aprel ayının sonuncu həftəsinin dördüncü günü "İKT-də qızlar" günü kimi qeyd olunur.**

Bu tarixi gün qadınların İKT (informasiya-kommunikasiya texnologiyaları) sahəsində rolunun artırılmasına dəstək vermək məqsədi daşıyır.

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi xanımları bu sahədə təhsil almağa təşviq etmək, mövcud karyera perspektivlərini vurğulamaq üçün silsilə tədbirlər təşkil edib. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Təhsil Nazirliyi, Şamaxı Rayon İcra Hakimiyyəti, "Azercell Telekom" MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi, Azərbaycan Qadınlarının İKT Klubu - "FEMMES DIGITALES", "STEP IT Academy" və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Bakı ofisinin təşkilati dəstəyilə ilk tədbir Şamaxı Şəhər İncəsənət Təhsili Mərkəzində keçirilib. 70-dək məktəbli qızın iştirak etdiyi tədbirdə informasiya texnologiyalarının əhəmiyyəti, bu sahədə təhsilin vacibliyi və geniş iş imkanlarından bəhs olunub. Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi tərəfindən iştirakçılara "sahibkarlıqda ilk addımlar","uğurlu sahibkarlıq" və digər vacib məqamları əhatə edən məlumatlar təqdim edilib. Eyni zamanda, bu gün münasibətilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, "AREA" Robotexnika və Mühəndislik Akademiyası və "chip.az" MMC-nin təşkilatçılığı ilə "İKT-də xanımlar: imkanlar və perspektivlər" adlı təlim keçirilib. "İT sahəsində müasir trendlər", "Sosial şəbəkələrdə biznes", "Qızlar üçün İKT-də karyera yolu", "Robotexnika sahəsində iş imkanları", "Azərbaycanda robotexnikanın inkişaf perspektivləri" mövzuları üzrə də məşğələlər təşkil olunub. "Azercell Telekom" MMC İKT sahəsində peşəkar qadın kadrlarının yetişdirilməsinə xüsusi qayğı ilə yanaşır. Qeyd edək ki, "Azercell" tərəfindən 2009-cu ildə yaradılan və "PAŞA Bank" tərəfindən dəstəklənən Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi xanımlar üçün informasiya texnologiyaları və sahibkarlıq mövzularını əhatə edən təlimlər, seminarlar təşkil edilməsində fəal iştirak edir.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Şəki rayonu, İbrahimkənd kənd sakini Əhmədov Namiq Qüdrət oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 0046 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

---

Şəki rayonu, Qozlubulaq kənd sakini İsgəndərova Şəfiqə Ağamalı qızının və ailə üzvlərinin adına verilmiş JN: 0092 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

---

"Qarabağ" ASC Səhmdarlarının növbəti ümumi yığıncağı 13 iyun 2019-cu il tarixində, saat 11:00 da keçiriləcək. İclasın gündəliyində aşağıdakı məsələlər durur:

1. Səhmdar Cəmiyyətinin idarəetmə orqanlarının 2018-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin hesabatı və balansın təsdiqi.
2. Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Ünvan: Bakı şəhəri, Nizami rayonu, A.Manafov küçəsi, ev 20, mənzil 20.

---

**"Magistral-Ekspress" ATSC**

***(Ziya Bünyadov prospekti 2113-cü məhəllə)***

Məlumat üçün bildiririk ki, 07.06.2019-cu il tarixdə, saat 10:00-da Ziya Bünyadov prospekti 2113 ünvanında səhmdarların növbəti yığıncağı keçiriləcək. Səhmdarlar ümumi yığıncaqda iştirak etmək üçün səhmlərə mülkiyyət hüququnu təsdiq edən reyestrdən çıxarışın əslini, səhmdarları təmsil edən şəxslər isə reyestrdən çıxarışın əslini və etibarnamənin əslini mütləq təqdim etməlidirlər.

İclasın gündəliyi:

1) "Magistral Ekspress" ATSC-nin 2018-ci ilin maliyyə hesabatlarının müzakirəsi.
2) "Magistral Ekspress" ATSC-nin Direktorlar Şurasının (Müşahidə Şurası) üzvlərinin seçilməsi.
3) "Magistral Ekspress" ATSC-nin İdarə Heyətinin üzvlərinin seçilməsi.
4) Digər məsələlər.

---

Əhədov Bəxtiyar Zülfüqar oğlunun adına 99-BO-999 dövlət nömrə nişanlı avtomobilin texniki pasportu itdiyi üçün etibarsız sayılır.

---

Abdulov Hüseyn Məmmədəli oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Mərhum İşməmmədova Lyusiya Ramazanovnanın (AZ-№980950) adına, Bakı şəhəri, Xətai rayonu, Adsız döngə küçəsi, ev 8, mənzil 6 ünvanının qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

# "Nar" 2019-cu ilin birinci rübünün nəticələrini açıqladı

**"Nar" 2019-cu ilin birinci rübünün nəticələrini açıqladı. Nəticələrə əsasən, mobil operator bu dövr ərzində bir çox göstəricilər üzrə yüksək artım dinamikası nümayiş etdirib.**

Belə ki, "Nar"ın sərfəli internet paketləri sayəsində ötən ilin eyni dövrü ilə müqayisədə mobil internetdən istifadədə 60% artım qeydə alınıb. İnternet istifadəçilərinin sayının artmasına mobil operatorun təklif etdiyi tariflər və paketlər, ölkə ərazisində quraşdırılan baza stansiyalarının sayının artması, eləcə də 4G smartfon penertasiyasının artımı təsir edib.

Bu ilin birinci rübü ərzində mobil operatorun müştərilərə göstərdiyi yüksək keyfiyyətli xidmət sayəsində müştəri məmnuniyyətində də artım müşahidə olunub. Müstəqil araşdırma şirkətləri tərəfindən aparılan sorğuların nəticələrinə əsasən, ötən ilin müvafiq dövrü ilə müqayisədə "Nar" abunəçilərinin sayı 12% artaraq, 2,2 milyondan çox olub. Cari ilin ilk üç ayı ərzində mobil operator paytaxtla yanaşı, bölgələrdə də şəbəkəsini gücləndirməkdə davam edib. Son 3 ay ərzində ölkə ərazisində 25-dən artıq yeni 3G və 4G baza stansiyası quraşdırılıb. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə "Nar" 4G internetindən istifadə edənlərin sayı 110 % artaraq 600 mini keçib.

Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib."Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.